17_27 IYUl-QARA.qxd 5/7/2026 9:02 PM Page 1


# UNİKAL

№17 (2297) 8 may 2026-cı il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az




# Paytaxtın nəqliyyat sistemi yenilənir: Bu qurumlar "Bakı Metropoliteni"na birləşdirildi



Səh.3

## Samir Nuriyev WUF13-ün təşkili ilə əlaqədar iclas keçirdi

*Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyasının (WUF13) təşkili ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin mayın 7-də iclası keçirilib. "Unikal" xəbər verir ki, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev iclası açaraq, WUF13-ün başlanmasına az vaxt qaldığını və mayın 17-dən 22-dək Bakı şəhərinin dünyanın şəhərsalma və dayanıqlı inkişaf gündəliyi üzrə ən mötəbər beynəlxalq platformalarından birinə ev sahibliyi edəcəyini diqqətə çatdırıb. Təşkilat Komitəsinin sədri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə qlobal miqyaslı tədbirlərin ölkəmizdə keçirilməsinin artıq ənənə halını aldığını bildirib. Samir Nuriyev...*

Səh.2

## "Kartdan-karta pul köçürmə tənzimlənəcək"



*Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, deputat Vüqar Bayramov "Unikal"a müsahibə verib. O, Mərkəzi Bankın sədri Taleh Kazımovun keçirdiyi mətbuat konfransında toxunduğu bir sıra vacib məsələlər barədə fikirlərini bildirib.*

Səh.4

## Sahibə Qafarova Sammitdə çıxış etdi



*Mayın 7-də Aralıq Dənizi Parlament Assambleyasına üzv və tərəfdaş ölkələrin parlament sədrlərinin 1-ci Sammiti keçirilib. "Unikal" xəbər verir ki, Milli Məclisin sədri Sahibə Qafarova Sammitdə iştirak edib. Azərbaycan parlamentinin spikeri Sahibə Qafarova Sammitdə çıxış edərək bildirib ki, son 20 il ərzində Aralıq Dənizi...*

Səh.3

## Mehdiyevlərin qaranlıq ailə biznesi uçuruma doğru



*Prezident Administrasiyasının və Milli Elmlər Akademiyasının (AMEA) sabiq rəhbəri Ramiz Mehdiyevin ailə biznesi ətrafında düyünlər çözülməyə başlayıb. Bu biznesin ən mühüm həlqələrindən biri olan "Bank BTB" ASC artıq Azərbaycan Beynəlxalq Bankına (ABB) inteqrasiya edilməkdədir.*

Səh.8

17_27 IYUl-QARA.qxd 5/7/2026 9:03 PM Page 2



# "Ərimin evini kiraya verib, anam verdiyi evdə yaşayırıq" - Müğənni Qumral



***Müğənni Qumral açıqlamaları ilə sosial şəbəkələrdə diqqət mərkəzinə düşüb.***

Milli.Az-ın məlumatına görə, sənətçi bildirib ki, kənardan şou-biznes nümayəndələrinin həyatı rahat görünsə də, əslində bu belə deyil. Onun sözlərinə görə, ailə həyatı və gündəlik məsuliyyətlər kifayət qədər çətinlik yaradır: "İlk növbədə anayıq, evimizin xanımıyıq. Mənim işçim də yoxdur, hər şeyi özüm edirəm".

Qumral qazancı ilə bağlı deyilənlərə də aydınlıq gətirib. O qeyd edib ki, "30 min qazanır" kimi fikirlər bəzən şişirdilmiş şəkildə təqdim olunur: "Bu məbləğ ümumi dövriyyədir. Xərcləri çıxanda o qədər də böyük qazanc qalmır. İşlərim çox olanda bu rəqəm olur, az olanda isə o gəlir olmur".

Müğənni həmçinin yaşayış şəraitindən də danışıb. Onun sözlərinə görə, hazırda həyat yoldaşı ilə birlikdə anasının verdiyi evdə yaşayır, daha əvvəl ərə gedəndə köçdüyü və yaşadığı evi isə kirayəyə veriblər.

Açıqlama sosial mediada geniş müzakirələrə səbəb olub. Bəzi istifadəçilər sənətçinin səmimi etiraflarını anlayışla qarşılayıblar. Buna baxmayaraq, Qumralın fikirləri şou-biznesdə görünən və görünməyən tərəflər barədə yenidən müzakirə açıb.

# Məşhurlar "instagram"da milyonlarla izləyici itirdi - SƏBƏB



***Instagram istifadəçiləri son günlər izləyici saylarında gözlənilməz azalmalar müşahidə ediblər. Sosial şəbəkədə bunun "bot" və saxta hesabların silinməsi ilə bağlı olduğu iddia edilir.***

"Meta" məsələ ilə bağlı rəsmi açıqlama verməsə də, şirkət vaxtaşırı qeyri-aktiv və saxta hesabların platformadan silindiyini bildirir. Bu addım spamın azalması və daha real statistikanın qorunması məqsədi daşıyır.

İddialara görə, bir sıra məşhur şəxslər də böyük izləyici itkisi yaşayıb. Siyahıda Kylie Jenner 15 milyon, Cristiano Ronaldo 8 milyon, Selena Gomez isə 6 milyon izləyici itirib.

Həmçinin Ariana Grande, Taylor Swift və Justin Bieber kimi məşhurların da milyonlarla izləyici itirdiyi iddia olunur. Türkiyəli aktyorlar Demet Özdemir, Çağatay Ulusoy və Burak Deniz də bu siyahıda yer alıb.

Lakin yayılan rəqəmlərin rəsmi şəkildə təsdiqlənmədiyi vurğulanır.

# "Toyda əsas bəy və gəlinin istəyidir, bibi, xalanın yox"



***"Toy hər zaman insanın düşündüyü kimi alınmır. Mən bir toy dəvəti qəbul edəndə mütləq bəy və gəlinlə görüşürəm. Onlara deyirəm ki, bu toyun sahibləri sizsiniz və hər şey sizin zövqünüzə uyğun olmalıdır. Bibi, xala, dayının öz toyları olub. Bəzən görürsən qonaqlar gəlib hansısa mahnını sifariş edirlər, bu normaldır. Amma əsas olan bəy və gəlinin istəyidir".***

Axşam.az xəbər verir ki, bu sözləri Əməkdar artist Xəyyam Mustafazadə "Sevilən səhər" proqramında deyib. Müğənni toy adətləri və məclislərdə musiqi seçimi ilə bağlı fikirlərini bölüşüb: "Toyda çalışıram daha çox həzin musiqilər səsləndirim, səs də yüksək olmasın. İnsanlar toyda da, yasda da bir araya gəlirlər, ona görə sakitlik vacibdir. Hamı rəqs edəndə, bəy və gəlin meydana çıxanda musiqinin səsini artırmaq olar. Amma elə toylar olur ki, insan evə gedəndə qulaqları tutulur, səhər 5-ə qədər yata bilmir".

Sənətçi sosial şəbəkələrdən istifadəsi ilə bağlı da danışıb: "Sosial şəbəkələrdə çox aktiv deyiləm. Son vaxtlar dostlarımın təkidi ilə bir qədər aktiv olmağa çalışıram. Bizim sənətdə insanın yanında onu yönləndirən biri olmalıdır".

# "Siz hər şeyi məhv edirsiniz" - Lalə Məmmədova

***"O dövrlərdə şou-biznesdə mahnı, klip rəqabəti var idi. Yaxşı mənada rəqabət idi. İndiki kimi deyildi. Biri dəxlisiz mahnı oxuyur, mən də oxuyum, toy tutum yox idi. Ucuz bir şeylərdir. Onun arxasında başqa şeylər var".***

Bu sözləri Əməkdar artist Lalə Məmmədova "Gün ortası" proqramında deyib. Müğənni illər əvvəlki şou-biznеslə indikini müqayisə edib. O bildirib ki, indikilər rəqabət aparmır, musiqini məhv edir: "Mənim musiqimindən xəbərsiz ucuz ritmli, dəxlisiz şeyləri gətirib qoyur mənim mahnımın yanına və onu məhv edir. Sağlam rəqabət budur: biri gözəl mahnı oxuyur, gedib bəstəkara deyirəm ki, mənə bundan da gözəl mahnı yaz. Biri də var, gözəl mahnı olduğunu bildiyim halda, orda-burda deyirəm ki, nə gündədir?".

# Günay İbrahimli dəbli küçə stili ilə diqqət çəkdi



***Müğənni Günay İbrahimli yeni fotolarını izləyiciləri ilə bölüşüb.***

Sənətçi gündəlik və modern üslubda obyektiv qarşısına keçib.

Günay paylaşımında bej rəngli uzun plaşı, qara şort və hündürdaban uzun çəkmələri ilə diqqət çəkib. Kombinini gün eynəyi və zəncir detallı çanta ilə tamamlayan müğənninin "modern street" stili izləyiciləri tərəfindən maraqla qarşılanıb.

İfaçı paylaşımına "Ağ fonda öz rəngini yaratmaq" şərhini yazıb.

Qeyd edək ki, müğənni uzun müddətdir moda evi açıb və geyimlərinin əksəriyyətini öz atelyesində hazırlatdırır.

# "Hamı yazır ki, niyə susursan?"



***Aparıcı İlkin Həsəni bir müddət əvvəl verilişində tanınmış xanımlara zəng edərək "Sevgiyə ehtiyacım var" sözlərini deyib.***

Onun bu videosu gündəm olub. Aparıcının bloger xanımı Aysel Həsəni ona çox sayda mesaj gəldiyini bildirib.

"İnstaqramım İlkinin xanımlara zəng etmə videosu ilə doludur. Hamı mənə bunu göndərir ki, niyə susursunuz? Oradakıların hamısı bizim üçün doğma olan xanımlardır. Bizim üçün bu, problem deyil" deyə, Aysel bildirib.

Qeyd edək ki, Aysel və İlkin cütlüyünün 2 övladı var.

# Nazir: "Təhsil yalnız bilik vermək deyil"



***Şagirdlərin milli-mənəvi dəyərlər və vətənpərvərlik ruhunda böyüməsi mühüm və məsuliyyətli məsələdir.***

"Unikal" xəbər verir ki, bunu elm və təhsil naziri Emin Əmrullayev "Ən yaxşı təqdimat" müsabiqəsinin mükafatlandırılması mərasimində çıxışında deyib.

Nazir bildirib ki, hər bir təhsil sisteminin qarşısında duran əsas məqsədlərdən biri yalnız bilik vermək deyil: "Həm də yetişən nəslin dünyagörüşünü formalaşdırmaqdır. Ayrı-ayrı fənlər üzrə bilik və bacarıqların əldə olunması vacibdir, lakin bundan daha mühüm və məsuliyyətli məsələ şagirdlərin milli-mənəvi dəyərlər və vətənpərvərlik ruhunda böyüməsidir".

Nazir qeyd edib ki, belə müsabiqələrin ən önəmli tərəfi yalnız qaliblərin müəyyən olunması deyil: "Əslində, bu prosesdə iştirak edən hər bir insan müəyyən mənada qalib sayılır. Çünki burada iştirak etmək, özünü sınamaq, bilik və bacarıqlarını nümayiş etdirmək hər bir iştirakçı üçün mühüm təcrübədir. İnanıram ki, bu müsabiqə iştirakçılara yeni biliklər, yeni təcrübələr qazandırıb, onların şəxsi inkişafına və dünyagörüşünün formalaşmasına müsbət təsir göstərib. Bu baxımdan, müsabiqədə iştirak edən hər kəs öz uğurunu əldə etmiş hesab oluna bilər".

# Azərbaycanda bu işçilərə eyni maaş veriləcək

***Gender bərabərliyinin təmin olunması məqsədilə işəgötürənlərin bərabər əməkhaqqı təmin etmək öhdəliyi konkretləşdirilib.***



"Unikal" xəbər verir ki, bu, Prezident İlham Əliyevin təsdiqlədiyi Əmək Məcəlləsinə edilən dəyişiklikdə əksini tapıb.

Dəyişikliyə əsasən, işəgötürən cinsindən asılı olmayaraq eyni və ya bərabər dəyərli müxtəlif işi yerinə yetirən işçilərə bərabər əməkhaqqı ödəməyə borcludur.

İşin bərabər dəyərli olması əmək şəraiti, əmək funksiyasının xarakteri və qüvvədə olan vahid tarif-ixtisas sorğu kitabçalarında nəzərdə tutulmuş tarif-ixtisas xüsusiyyətləri nəzərə alınmaqla işəgötürən tərəfindən müəyyən edilməlidir.

Müvafiq olaraq "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" qanuna olunan dəyişikliyə əsasən, 9.1-ci maddə yeni redaksiyada verilir. Beləliklə, işəgötürən tərəfindən cinsindən asılı olmayaraq eyni və ya bərabər dəyərli müxtəlif işi yerinə yetirən işçilərə əməkhaqqı bərabər ödənilməlidir. İşin bərabər dəyərli olması Azərbaycan Respublikası Əmək Məcəlləsinin tələblərinə uyğun olaraq əmək şəraiti, əmək funksiyasının xarakteri və qüvvədə olan vahid tarif-ixtisas sorğu kitabçalarında nəzərdə tutulmuş tarif-ixtisas xüsusiyyətləri nəzərə alınmaqla işəgötürən tərəfindən müəyyən edilib.

# Mehdiyevlərin qaranlıq ailə biznesi uçuruma doğru

## "Boz kardinal"ın "qara işləri"nə son nöqtə qoyulur - Kələklə gələn küləklə gedir...

***Prezident Administrasiyasının və Milli Elmlər Akademiyasının (AMEA) sabiq rəhbəri Ramiz Mehdiyevin ailə biznesi ətrafında düyünlər çözülməyə başlayıb. Bu biznesin ən mühüm həlqələrindən biri olan "Bank BTB" ASC artıq Azərbaycan Beynəlxalq Bankına (ABB) inteqrasiya edilməkdədir. Bu ASC-nin aktivlərinin ötürülməsi prosesi mərhələli şəkildə aparılır.***

Faiz dəhlizinin parametrlərinə dair qəbul edilmiş qərarın açıqlanmasına həsr olunan mətbuat konfransında Mərkəzi Bankın İdarə heyətinin sədri Taleh Kazımov mövzu ilə bağlı bildirib ki, "BTB" səhmdarları tərəfindən bankın ABB-yə çevrilməsi ilə bağlı müraciət ünvanlanıb. Onun sözlərinə görə, proses mərhələli şəkildə icra edilir.

"Depozitlərin əksəriyyəti ABB-yə keçirilib, kreditlərin keçirilməsi həyata keçirilir. Hazırda proses normal qaydada davam edir və hər hansı problem müşahidə olunmur. Biz hər hansısa bir problem görmürük. Müştərilər də prosesin gedişi ilə bağlı müraciət edir" - Kazımov bildirib.

AMB sədri vurğulayıb ki, yaxın müddətdə bütün aktiv və öhdəliklərin köçürülməsi başa çatacaq: "Düşünürəm ki, yaxın vaxtlarda artıq aktivlərin və öhdəliklərin, kredit portfelinin ABB-yə keçirilməsi təmin olunacaq".

Qeyd edək ki, "Bank BTB" ASC-nin səhmlərinin 74.98%-i (49 829 ədəd) Ramiz Mehdiyevin gəlini Nigar İsmayıl qızı Mehdiyevaya məxsus idi.

Xatırladaq ki, ötən il Bakı şəhəri Səbail rayon məhkəməsi Ramiz Mehdiyev barədə cinayət işi üzrə qərar qəbul edib. Qərara əsasən, məhkəmə xüsusilə ağır cinayət əməllərinə görə cinayət məsuliyyətinə cəlb edilmiş Ramiz Mehdiyev barədə verilmiş vəsatəti təmin edərək, 4 ay müddətinə ev dustaqlığı qətimkan tədbiri seçib. Bu ilin fevralında Mehdiyevin barəsində Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) başlanmış cinayət işi üzrə seçilmiş qətimkan tədbirinin müddətinin uzadılması barədə istintaq orqanının verdiyi vəsatətə baxılıb və ev dustaqlığı qətimkan tədbirinin müddəti 4 ay uzadılıb.

"Boz kardinal" Cinayət Məcəlləsinin 278.1 (dövlət hakimiyyətini ələ keçirməyə yönələn əməllər), 274 (dövlətə xəyanət) və 193-1.3.2-ci (cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırma) maddələri ilə ittiham olunur.

Onu da yada salaq ki, Ramiz Mehdiyev 1995-2019-cu illərdə Prezident Administrasiyasının rəhbəri, 2019-2022-ci illərdə isə AMEA-nın prezidenti olub.

Sözügedən müddətdə o və yaxınları nəhəng biznes şəbəkəsinin sahibinə çevriliblər.

Mehdiyev xüsusilə ağır cinayət əməllərinə görə cinayət məsuliyyətinə cəlb edildikdən sonra onun həmin biznes şəbəkəsinin taleyi ətrafında da suallar yaranıb. Təcrübə göstərir ki, bir sıra iri məmurlar vəzifədə olarkən ailə üzvlərinin, yaxınlarının adına sözün həqiqi mənasında "biznes imperiyası" qurur, oliqarxlaşır, ancaq onlar kresloların itirdikdən, bəzi hallarda da ağır cinayət əməlləri səbəbindən hüquqi məsuliyyətə cəlb olunduqdan sonra həmin "imperiya"da çökür. Necə deyərlər, "kələklə gələn küləklə gedir".



İndi Mehdiyevlərin qaranlıq biznes şəbəkəsinə daxil olan "Bank BTB" ASC-nin taleyi də "boz kardinal" üçün eyni aqibətdən xəbər verir. Yaxın vaxtlarda onun nəzarətindəki digər gəlir qaynaqlarının da oxşar taleyi yaşayacağı gözləniləndir. Bu barədə yerli KİV bir müddətdir yazır.

Ramiz Mehdiyev və ailəsinin nəzarətində mənzil tikinti kooperativlərindən tutmuş özəl klinikalaradək, teleserial çəkilişlərindən, innovativ bio-texnologiyalara, informasiya-telekommunikasiya texnologiyalarından (İKT) tutmuş nəşriyyat fəaliyyətinədək bir çox sahələrdə fəaliyyət göstərən saysız-hesabsız şirkət var. Həmin şirkətlər məhz "boz kardinal"ın "çətiri" altında ortaya çıxıb, qısa müddətdə və məlum səbəblərdən görünməmiş sürətlə böyüyüb. İndi onların əksəriyyətinin də taleyi yəqin ki, "Bank BTB"dən fərqli olmayacaq.

Ümumiyyətlə, Ramiz Mehdiyev vəzifədə olarkən az qala hər sahəyə göz qoyub və orada özü üçün mütləq bir qazanc mənbəyi yaradıb. Məsələn, onun Novxanı kəndində 155 hektar üzüm bağının olduğu da ortaya çıxmışdı. Bu üzüm bağlarında yetişdirilən məhsullar ailəyə məxsus "Fireland Vineyards" MMC-nin şərab zavodunda emal olunur və məhsullar əsasən Çinə satılır. Ən qəribəsi isə o idi ki, bu bağlara görə Mehdiyevlər dövlətdən külli miqdarda subsidiya alıb. Bir sözlə, tamah gözünü örtən Mehdiyevlər büdcə pulları hesabına özləri üçün biznes qurublar! Üstəlik, Novxanıdakı üzüm bağları yeganə deyil; "boz kardinal"ın ailəsi Goranboyun Xınalı kəndində onlarca hektara yiyələnib; Maştağa qəsəbəsindəki keçmiş Subtropik Bitkilər Sovxozunun ərazisində isə Mehdiyevin həyat yoldaşı Qalina Mehdiyeva və qızı Kamilə Əliyevaya məxsus kənd təsərrüfatı torpaqlarının ümumi sahəsi müvafiq olaraq 892 sot və 240 sotdur.

Qısası, Mehdiyevlərin ayağında illər uzunu şübhəli şəkildə qurulmuş nəhəng "biznes imperiyası" var və bu "imperiya"nın çöküşü başlayıb. Təəccüblü deyil: oğurluq işlər də bir növ yalan kimidir - ömrü uzun çəkmir...

***Sənan Mirzə***

17_27 IYUI-QARA.qxd 5/7/2026 9:03 PM Page 4



# Makron əvvəlcə Bakı ilə razılaşmalı idi - Üç günlük qonağın siyasi səhvi

***Fransa prezidenti Emmanuel Makronun Ermənistana son səfəri təkcə Paris-İrəvan münasibətlərinin dərinləşməsi ilə deyil, həm də regionda yeni geosiyasi siqnalların formalaşması ilə diqqət çəkdi.***

Səfərin ən çox rezonans doğuran detalı isə Makronun Ermənistan-Türkiyə sərhədini quru yolu ilə keçmək planı olub. Onun bu istəyi Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən şəxsən bloklandı. Bu qərar formal olaraq diplomatik protokol məsələsi kimi görünsə də, əslində Ankara, Bakı və Paris arasında formalaşan daha geniş strateji qarşıdurmanın indikatorudur.

1993-cü ildən bəri bağlı qalan Türkiyə-Ermənistan sərhədi regionun ən simvolik siyasi xətlərindən biridir. Ankara həmin dövrdə sərhədi Azərbaycanın ərazi bütövlüyünə dəstək məqsədilə bağlamışdı. Bu səbəbdən sərhədin açılması məsələsi heç vaxt yalnız ikitərəfli humanitar və ya iqtisadi məsələ olmayıb. Proses həmişə Azərbaycan-Ermənistan münasibətlərinin dinamikası ilə paralel şəkildə qiymətləndirilib.

Son illərdə normallaşma istiqamətində müəyyən texniki addımlar atılıb. Xüsusi nümayəndələrin görüşləri, birbaşa aviareyslərin bərpası, kommunikasiya imkanlarının müzakirəsi və keçid məntəqəsinin açılışa hazırlanması Ankaranın prinsipial şəkildə prosesə qapını bağlamadığını göstərirdi. Lakin Türkiyə eyni zamanda davamlı olaraq bir mesaj verir: sərhədin açılması regional siyasi reallıqlardan kənar olan xarici güclərin təşəbbüsü ilə baş tutmayacaq.

Makronun sərhədi keçməsi isə sıradan diplomatik səfərdən daha artıq simvolik məna daşıyırdı. Əgər bu addım reallaşsaydı, Fransa prezidenti özünü Türkiyə-Ermənistan yaxınlaşmasının siyasi katalizatoru kimi təqdim edəcəkdi. Ankara isə bunun qarşısını almaqla prosesin müəllifliyinin region ölkələrində qalacağını nümayiş etdirdi.

Məsələ ilə bağlı Azərbaycanın mövqeyi öyrənildikdən sonra qərar ən yüksək siyasi səviyyədə rədd edilib. Bu detal xüsusilə diqqətəlayiqdir. Çünki bu, Türkiyənin Ermənistan siyasətində Bakı ilə koordinasiyanı taktiki deyil, strateji xətt kimi saxladığını göstərir.

2020-ci ildən sonra formalaşan regional düzən Türkiyə-Azərbaycan tandeminin təsir imkanlarını əhəmiyyətli dərəcədə artırıb. Qarabağ müharibəsindən sonra yaranmış yeni reallıqda Ankara və Bakı Cənubi Qafqazda qərarverici aktor statusunu gücləndiriblər. Bu kontekstdə Fransa kimi xarici güclərin vasitəçilik və ya siyasi təsir imkanları əvvəlki dövrlərlə müqayisədə daha məhduddur.

Ərdoğanın veto qərarı həm də o mesajı verdi ki, regionda geosiyasi legitimlik artıq yalnız Qərbin diplomatik təşəbbüsləri ilə formalaşmır. Ankara və Bakı regional məsələlərin region daxilində həll olunması modelini ön plana çıxarmağa çalışırlar.

Ümumiyyətlə, Makronun İrəvana səfəri təsadüfi zamanlamaya malik deyildi. Ermənistanın son illərdə Rusiya təhlükəsizlik orbitindən qismən uzaqlaşmaq cəhdləri Avropa İttifaqı və xüsusilə Fransa tərəfindən fəal şəkildə dəstəklənir. Paris həm siyasi, həm müdafiə, həm də iqtisadi sahələrdə Ermənistanla əlaqələri genişləndirərək regionda öz təsirini artırmağa çalışır.

Makronun ”Ermənistan Avropaya doğru yol seçib” mesajı əslində daha



geniş geosiyasi xəttin tərkib hissəsidir. Fransa bununla Cənubi Qafqazda Rusiyanın zəifləyən mövqeyindən yaranan boşluğu doldurmağa cəhd edir. Lakin problem ondadır ki, Parisin regiondakı təsiri siyasi bəyanatlar səviyyəsində yüksək görünsə də, real təhlükəsizlik və kommunikasiya arxitekturasında Türkiyə və Azərbaycanın imkanları daha genişdir.

Bu səbəbdən Makronun sərhədi keçməsi Fransa üçün simvolik diplomatik qələbəyə çevrilə bilərdi. Ankara isə bu görüntünün yaranmasına imkan vermədi. Fransa liderinin səhvi onda oldu ki, rəsmi Bakının yeni reallıqlar fonunda regionda təsir gücünü görə bilmədi. Bu mənada Makron əvvəlcə Bakı ilə razılaşmalı idi. O, İrəvanda verdiyi qərəzli bəyanatlardan, qondarma ”erməni soyqırımı” abidəsini ziyarət etməsindən sonra sözünün yerə salınacağını anlamalı idi.

Məsələ yalnız Ermənistanla məhdudlaşmır. Son illər Türkiyə və Fransa arasında Aralıq dənizi, Liviya, NATO daxilində təhlükəsizlik yanaşmaları və Yunanıstan-Kipr məsələlərinə görə ciddi fikir ayrılıqları mövcuddur. Parisin Afina ilə hərbi əməkdaşlığı genişləndirməsi və Ankaranın regional siyasətinə qarşı sərt ritorikası Türkiyədə Fransaya qarşı strateji etimadsızlığı artırıb.

Ermənistan məsələsi də həmin qarşıdurmanın davamı kimi qəbul edilir. Türkiyə siyasi dairələri Fransanın erməni siyasətini təkcə humanitar və ya tarixi məsələ kimi deyil, Ankaraya qarşı geosiyasi təzyiq aləti kimi qiymətləndirirlər.

Bu fonda Makronun sərhədi keçmək təşəbbüsü Türkiyədə real nəticədən daha çox siyasi görüntü yaratmağa hesablanmış addım kimi qiymətləndirildi.

Baş verən hadisə bir mühüm tendensiyanı daha aydın göstərdi: Cənubi Qafqazda qərarvermə mərkəzi tədricən regionun daxilindəki aktorların əlinə keçir. Avropa İttifaqı və Fransa diplomatik təsir imkanlarını artırmağa çalışsalar da, sərhədlər, kommunikasiyalar və təhlükəsizlik məsələlərində əsas söz sahibi yenə də Türkiyə, Azərbaycan və müəyyən mənada Rusiyadır.

Bu isə Ermənistan üçün mürəkkəb seçim yaradır. İrəvan bir tərəfdən Avropa ilə yaxınlaşmanı sürətləndirməyə çalışır, digər tərəfdən isə coğrafi və iqtisadi reallıqlar onu region dövlətləri ilə anlaşmaya məcbur edir. Türkiyə sərhədinin açılması da nəticə etibarilə Parisin siyasi dəstəyi ilə deyil, Bakı-İrəvan-Ankara xəttində əldə olunacaq real razılaşmalarla mümkün olacaq. Ərdoğanın veto qərarı məhz bu geosiyasi həqiqəti nümayiş etdirdi. İndi Cənubi Qafqazda simvolik jestlərdən daha çox, regional güc balansı və strateji koordinasiya həlledici rol oynayır.

***Ağarza Elçinoğlu***



## Paşinyan Araz çayı ilə bağlı qərar verdi

Ermənistan hökuməti Araz çayı hövzəsində qum mədəninin tikintisinin həyata keçirilməsi barədə qərar qəbul edib.

”Unikal” xəbər verir ki, bu barədə Ermənistan mətbuatı yazıb.

Qeyd olunub ki, Ermənistanın Baş naziri bunun üçün layihə-smeta sənədlərinin hazırlanması və ekspert qiymətləndirmələri barədə göstəriş verilib.

## Pezeşkian Xamenei ilə görüşdü

***İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian İslam İnqilabının Ali Rəhbəri Ayətullah Seyid Müctəba Xamenei ilə görüşüb.***



”Unikal” xəbər verir ki, bu barədə o, Sənaye, Mədən və Ticarət Nazirliyində çıxışı zamanı açıqlayıb. Prezident görüşün səmimi bir atmosferdə keçdiyini və müzakirələrin təxminən iki saat yarım davam etdiyini bildirib: ”Bu görüşdə məni ən çox cəlb edən şey İslam İnqilabının Ali Liderinin baxış tərzi, təvazökar və dərin səmimi davranışı idi. Bu yanaşma müzakirə atmosferini etimad, sakitlik, empatiya və birbaşa dialoqa əsaslanan bir mühitə çevirdi.

Ali Rəhbər də bu görüşə məhz sadəlik, təvazökarlıq, səmimiyyət və qarşılıqlı hörmətə əsaslanan ruhda qatıldı”.

***Ağarza Elçinoğlu***

## "Avropa ölkələri qarşıdurmaya doğru irəliləyir" - Peskov

***”Bir neçə Avropa ölkəsi Avropa qitəsində qarşıdurmaya doğru irəliləyir”.***



”Unikal” xəbər verir ki, bunu Rusiya liderinin mətbuat katibi Dmitri Peskov Polşanın ən böyük ordu yaratmaq planları ilə bağlı xəbərləri şərh edərkən deyib. ”Özləri üçün strateji hala gələn bu xətti izləməklə, bəzi ölkələr Avropa qitəsində əhəmiyyətli qarşıdurmaya və gərginliyin artmasına yol açırlar. Bu, onların məsuliyyətidir”, - deyə o vurğulayıb.

Peskov həmçinin qeyd edib ki, Polşa, bir sıra digər Avropa ölkələri kimi, Rusiyanı əsas təhlükə adlandırır, Moskva isə bunu rədd edir.

***Gülayə Mecid***

17_27 IYUI-QARA.qxd 5/7/2026 9:04 PM Page 5



# Bir qrup mədəniyyət xadiminə Prezidentin fərdi təqaüdü veriləcək



Bir qrup incəsənət xadiminə Azərbaycan Respublikası Prezidentinin mükafatları verilib.

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb.

Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü veriləcək:

Abbasov Adil Möhsün oğlu
Bağırova Sənubər Yusufovna
Həkimova Svetlana Calal qızı
Hüseynov Rövşən Maqsud oğlu
Mehdiyev Cahangir Yaqub oğlu
Məlik-Aslanov Ramiz Lütfəli oğlu
Məmmədov Alim Tahir oğlu
Məmmədova Rimma Şahbabayevna
Mustafayev Mustafa Şura oğlu
Nəsirova Hicran Fətəli qızı
Rəhimova Adilə Teymurovna.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

# Hikmət Hacıyev Bakıda Polşa rəsmisi ilə görüşdü



***Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Polşanın Nazirlər Şurasının üzvü, Xüsusi Xidmət orqanlarının koordinatoru Tomaş Simonyakla görüşüb.***

"Unikal" xəbər verir, bu barədə Tomaş Simonyak "X" hesabında paylaşım edib.

Polşa rəsmisi Hikmət Hacıyevlə ikitərəfli münasibətləri - xüsusən də təhlükəsizlik sahəsində vəziyyəti müzakirə edib.

Tərəflər İrandakı vəziyyət, Rusiya-Ukrayna müharibəsi və Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasına dair fikir mübadiləsi aparıblar.

# YAP rəhbərliyi Heydər Əliyevin xatirəsini yad edib

***Mayın 7-də müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 103-ci ildönümü ilə əlaqədar Yeni Azərbaycan Partiyasının nümayəndələri Fəxri xiyabanda Ulu Öndərin xatirəsini yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.***

"Unikal" xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

# Samir Nuriyev WUF13-ün təşkili ilə əlaqədar iclas keçirdi

***Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyasının (WUF13) təşkili ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin mayın 7-də iclası keçirilib.***




"Unikal" xəbər verir ki, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev iclası açaraq, WUF13-ün başlanmasına az vaxt qaldığını və mayın 17-dən 22-dək Bakı şəhərinin dünyanın şəhərsalma və dayanıqlı inkişaf gündəliyi üzrə ən mötəbər beynəlxalq platformalarından birinə ev sahibliyi edəcəyini diqqətə çatdırıb.

Təşkilat Komitəsinin sədri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə qlobal miqyaslı tədbirlərin ölkəmizdə keçirilməsinin artıq ənənə halını aldığını bildirib. Samir Nuriyev WUF13-ün Azərbaycanın müasir şəhərsalma baxışının, dayanıqlı inkişaf gündəliyinə verdiyi töhfələrin, həmçinin işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq modelinin beynəlxalq miqyasda təqdimatı baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayıb.

Cari 2026-cı ilin ölkəmizdə "Şəhərsalma və Memarlıq İli" elan edilməsinin WUF13-ün əhəmiyyətini daha da artırdığı qeyd olunub. Belə ki, Forumun bu çərçivədə il ərzində həyata keçirilən tədbirlərin məntiqi davamı və əsas beynəlxalq mərhələsi kimi çıxış etdiyi diqqətə çatdırılıb.

Samir Nuriyev Forumda iştirak üçün bu günədək 177 ölkədən 28 mindən çox şəxsin qeydiyyatdan keçdiyini, onların təxminən yarısının xarici nümayəndələr təşkil etdiyini bildirərək, bunun WUF13-ə beynəlxalq marağın yüksək göstəricisi olduğunu qeyd edib.

Təşkilat Komitəsinin sədri Azərbaycanın təşəbbüsü ilə WUF tarixində ilk dəfə keçiriləcək Liderlərin Bəyanatları seqmentinin Forumun siyasi və substantiv baxımdan əsas yeniliklərindən biri olduğunu, bu toplantının şəhərsalma və dayanıqlı məskunlaşma məsələlərini ali səviyyəli qlobal müzakirə predmetinə çevirəcəyini diqqətə çatdırıb.

Liderlər seqmentinə, həmçinin Azərbaycanın sədrliyi ilə keçiriləcək WUF13 Nazirlər Görüşünə, Azərbaycan tərəfindən təşkil olunacaq Xüsusi Sessiyaya, Azərbaycan pavilyonunda nəzərdə tutulan tədbirlərə və işğaldan azad edilmiş ərazilərimizdə aparılan bərpa-quruculuq işlərinin təqdimatına hazırlığın xüsusi diqqətdə saxlanılmasının vacibliyi vurğulanıb.

Daha sonra ümumi hazırlıq prosesinin gedişatı, substantiv, kommunikasiya, protokol, nəqliyyat və təşkilati-logistika sahələrində görülmüş işlər, habelə gündəlikdə duran digər məsələlər üzrə Təşkilat Komitəsinin üzvlərinin məruzələri dinlənilib.

İclasın sonunda Təşkilat Komitəsinin sədri Azərbaycan Respublikası Prezidentinin bu mötəbər tədbirin yüksək səviyyədə təşkili və keçirilməsi ilə bağlı qarşıya qoyduğu vəzifələrə uyğun olaraq, WUF13-ün Azərbaycanın beynəlxalq tədbirlərə ev sahibliyi sahəsində formalaşmış müsbət təcrübəsinin növbəti uğurlu nümunəsinə çevriləcəyinə əminliyini bildirib.

Samir Nuriyev WUF13-ə hazırlıq prosesinin yekun mərhələsində aidiyyəti qurumlar tərəfindən müvafiq məsələlərin operativ və uzlaşdırılmış qaydada həll edilməsi, həmçinin bütün istiqamətlər üzrə işlərin daha da intensivləşdirilməsi və başa çatdırılması barədə tapşırıqlar verib.

# Baş nazir bu qaydaları təsdiq etdi

***Nazirlər Kabineti "Müayinə və texniki xidmətlə bağlı tələblərə riayət olunmasına monitorinqin keçirilməsi Qaydası"nı təsdiq edib.***



"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov yeni qərar imzalayıb.

Qərara əsasən, Qayda "Qaz təchizatı haqqında" qanuna əsasən hazırlanıb, monitorinq Qanunun 17.1-ci maddəsində nəzərdə tutulmuş müayinə və texniki xidmət məlumatları üzrə reyestrə daxil edilmiş məlumatlar əsasında texniki təhlükəsizlik sahəsi üzrə Fövqəladə Hallar Nazirliyi və qaz qurğularının etibarlı istismarı sahəsi üzrə tənzimləyici tərəfindən keçirilir.

Sahibkarlıq subyektlərinə münasibətdə monitorinq "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" qanunun tələblərinə uyğun həyata keçirilir.

Qaydada istifadə olunan anlayışlar Qanunda və digər normativ hüquqi aktlarda nəzərdə tutulmuş mənaları ifadə edir.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Son dəqiqə" MMC mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Ölkəmiz vasitəsilə Ermənistana alüminium və taxıl göndərildi

***Azərbaycandan tranzit keçməklə Rusiyadan Ermənistana növbəti tədarük həyata keçirilib.***

"Unikal"ın məlumatına görə, 10 vaqondan ibarət, ümumi çəkisi 700 ton olan taxıl yükləri yola salınıb. Bu gün həm də 2 vaqondan ibarət, ümumi çəkisi 133 ton olan alüminium məhsulları da tranzit qaydasında daşınır. Alüminium yükləri bu marşrut üzrə ilk dəfə göndərilir. Vaqonlar Biləcəri stansiyasından Böyük Kəsik istiqamətinə yola salınıb. Xatırladaq ki, 2025-ci il oktyabrın 21-də Prezident İlham Əliyev Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevlə mətbuata birgə bəyanatında Azərbaycanın işğal dövründən bəri mövcud olmuş Ermənistana yük tranziti üzrə bütün məhdudiyyətləri aradan qaldırdığını vurğulayıb və ilk belə tranzit yükünün Qazaxıstan taxılının Ermənistana tədarükü olduğunu bildirib.

# Məcnun Məmmədov: "Ərzaqlıq buğda istehsalının məhsuldarlığı 5 tona çatdırılacaq"

***Azərbaycanda ərzaqlıq buğda istehsalının məhsuldarlığı 5 tona çatdırılacaq.***

Bunu "Report"a açıqlamasında kənd təsərrüfatı naziri Məcnun Məmmədov deyib.Nazirin sözlərinə görə, Azərbaycanda ərzaqlıq buğda proqramına qoşulan fermerlərin əkin sahələri artırılır: "Ötən il proqram çərçivəsində 22 min hektar sahədən 126 min ton ərzaqlıq buğda əldə olunub. Bu il sahə 29 min hektara çıxıb. İldən-ilə artırmağı niyyət edirik".

M.Məmmədov bildirib ki, əsas hədəf məhsuldarlığı artıraraq nəticə əldə etməkdir: "Keçən il ərzaqlıq buğdada 5,7 ton məhsuldarlıq əldə etmişik. Halbuki ölkə üzrə orta məhsuldarlıq 3 ton ətrafındadır. Bizim əsas hədəfimiz ölkədə buğda istehsalını 3 tondan 5 tona qaldırmaqdır".

17_27 IYUl-QARA.qxd 5/7/2026 9:04 PM Page 6



# Paytaxtın nəqliyyat sistemi yenilənir: Bu qurumlar "Bakı Metropoliteni"na birləşdirildi

***Prezident İlham Əliyev "Bakı Metropoliteni" QSC-nin yenidən təşkili və bununla əlaqədar bəzi fərman və sərəncamlarında dəyişiklik edilməsi, bəzi sərəncamlarının ləğv edilməsi haqqında fərman imzalayıb.***

"Unikal" xəbər verir ki, fərmana əsasən, "Bakı Metropoliteni" "BakuBus" və "Bakı Taksi Xidməti" MMC-lərin ona qoşulması formasında yenidən təşkil edilib.

Metropoliten ictimai nəqliyyat sahəsində (metro, avtobus, tramvay, taksi) sərnişindaşıma üzrə xidmətlər göstərilməsini, onların keyfiyyətinin və təhlükəsizliyinin yüksəldilməsini, həmin xidmətlərin təşkili və gediş haqqının ödənilməsi üzrə innovativ və rəqəmsal həllərin tətbiqini, habelə bu sahədə yeni nəqliyyat infrastrukturu obyektlərinin (metro, tramvay, avtomobil nəqliyyatı üzrə avtovağzalların (avtostansiyaların), terminalların və digər qurğuların, eləcə də taksi və avtobuslara texniki xidmət göstərən texniki-təmir sahələrinin və stansiyalarının) layihələndirilməsini və tikintisini, maddi-texniki bazanın gücləndirilməsini və müasirləşdirilməsini, həmçinin müxtəlif nəqliyyat növləri (metro, avtobus, tramvay, taksi) üzrə xidmətlərin qarşılıqlı inteqrasiyasını, vahid mərkəzdən idarə olunmasını və əlaqələndirilməsini təmin edən kommersiya hüquqi şəxsidir.

Cəmiyyət "BakuBus" və "Bakı Taksi Xidməti"nin hüquqi varisidir, onların bütün hüquqları və öhdəlikləri, habelə əmlakı ona keçir.

Cəmiyyətin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün sədr də daxil olmaqla 5 üzvdən ibarət Müşahidə Şurası yaradılır;

Cəmiyyətin fəaliyyətinə cari rəhbərliyi 5 üzvdən - sədr və onun 4 müavinindən ibarət İdarə Heyəti həyata keçirir.

Cəmiyyətin ümumi yığıncağının səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

Prezidentə:

- Cəmiyyətin yenidən təşkili və ləğvi;
- Cəmiyyətin icra orqanının yaradılması;
- Cəmiyyətin İdarə Heyəti üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinə (AZCON-a):

- Prezidentin müəyyən etdiyi hallar istisna olmaqla, Mülki Məcəlləyə uyğun olaraq ali idarəetmə orqanının müstəsna səlahiyyətinə aid edilmiş digər məsələlərin dövlət başçısı ilə razılaşdırmaqla həyata keçirilməsi;
- Normativ hüquqi aktlar, eləcə də Cəmiyyətin nizamnaməsi ilə ümumi yığıncağa həvalə edilən digər səlahiyyətlərin həyata keçirilməsi.

Cəmiyyətin Müşahidə Şurası aşağıdakı səlahiyyətləri həyata keçirir:

- Cəmiyyətin inkişaf strategiyasına və onun icrası ilə bağlı tədbirlər planına, habelə əsas səmərəlilik göstəricilərinin müəyyən edilməsinə və biznes planına dair Ümumi Yığıncağa təkliflər vermək;
- Cəmiyyətin gəlirlər və xərclər smetalarını, o cümlədən büdcə proqnozlarını təsdiq edilməsi üçün Ümumi Yığıncağa təqdim etmək və icrasını təmin etmək;
- Cəmiyyətin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 %-ni və daha çox hissəsini təşkil edən əqdin bağlanılmasına dair Ümumi Yığıncağa təkliflər vermək;
- fəaliyyətinin səmərəliliyini artırmaq üçün etika, strateji planlaşdırma, risklərin idarə edilməsi və s. üzrə yardımçı komitələr yaratmaq və öz səlahiyyətlərinin bir hissəsini onlara həvalə etmək;
- Ümumi Yığıncaqla razılaşdırmaqla Cəmiyyətin maliyyə planlaşdırılmasını təsdiq etmək və icrasını təmin etmək;
- Ümumi Yığıncaqla razılaşdırmaqla Cəmiyyətin idarə, filial və nümayəndəliklərinin əsasnamələrini, habelə təsisçisi (iştirakçısı) olduğu hüquqi şəxslərin nizamnamələrini təsdiq etmək;



- Cəmiyyətin idarə, filial və nümayəndəliklərinin, habelə Cəmiyyət tərəfindən hüquqi şəxslərin yaradılması, eləcə də onların idarəetmə orqanlarının üzvlərinin (rəhbərlərinin) vəzifəyə təyin və vəzifədən azad edilməsi ilə bağlı Ümumi Yığıncağa təkliflər vermək;
- Ümumi Yığıncağın razılığı ilə Cəmiyyətin, onun idarə, filial və nümayəndəliklərinin, habelə təsisçisi (iştirakçısı) olduğu hüquqi şəxslərin strukturunu, işçilərinin say həddini, əməkhaqqı sistemini və əməyin ödənişi fondunu, ştat cədvəlini təsdiq etmək;
- Cəmiyyətin mənfəətinin və zərərinin bölüşdürülməsi ilə bağlı sənədləri, həmçinin illik hesabatları və maliyyə hesabatlarını təsdiq edilməsi üçün Ümumi Yığıncağa təqdim etmək;
- Cəmiyyətin daxili audit bölməsini təşkil etmək və onun əsasnaməsini Ümumi Yığıncaqla razılaşdırmaqla təsdiq etmək, əməkdaşlarını vəzifəyə təyin və vəzifədən azad etmək;
- Mülki Məcəllə, bu sahədə münasibətləri tənzimləyən digər normativ hüquqi aktlar və Cəmiyyətin nizamnaməsi ilə Müşahidə Şurasının səlahiyyətlərinə aid edilmiş digər məsələləri həll etmək.

Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etməlidir.

AZCON Cəmiyyətin yeni nizamnaməsini və strukturunu üç ay müddətində Prezidentlə razılaşdırmaqla təsdiq etməli, fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görməlidir.



# Sahibə Qafarova Sammitdə çıxış etdi

***Mayın 7-də Aralıq Dənizi Parlament Assambleyasına üzv və tərəfdaş ölkələrin parlament sədrlərinin 1-ci Sammiti keçirilib.***

"Unikal" xəbər Milli Məclisin sədri Sahibə Qafarova Sammitdə iştirak edib.

Azərbaycan parlamentinin spikeri Sahibə Qafarova Sammitdə çıxış edərək bildirib ki, son 20 il ərzində Aralıq Dənizi Parlament Assambleyası parlamentlərarası əməkdaşlığın inkişaf etdirilməsi, strateji əhəmiyyətə malik regionda dialoqun, qarşılıqlı anlaşmanın, sülh və sabitlik naminə ortaq məsuliyyətin təşviqi baxımından mühüm platforma kimi özünü təsdiq edib.

Azərbaycanın coğrafi baxımdan Aralıq dənizi regionunun bir hissəsi olmasa da, Aralıq dənizi hövzəsi və Körfəz ölkələri ilə uzunmüddətli əlaqələrə və konstruktiv münasibətlərə malik olduğunu bildirən Milli Məclisin sədri deyib ki, Azərbaycan enerji marşrutlarının və təchizatının şaxələndirilməsi vasitəsilə regional və beynəlxalq enerji təhlükəsizliyinə töhfə verir. Bununla yanaşı, qeyd olunub ki, ölkəmiz Şərqlə Qərb arasında nəqliyyat bağlantılarının inkişafında, xüsusilə Orta Dəhliz çərçivəsində fəal rol oynayır. Bu səylər əməkdaşlığın gücləndirilməsinə və ortaq iqtisadi dayanıqlılığın təşviqinə töhfə verir.

Spiker Sahibə Qafarova, parlamentlərin beynəlxalq münasibətlərdə getdikcə daha mühüm rol oynadığını və parlament diplomatiyasının dialoqun təşviq edilməsi, şəffaflığın artırılması və dövlətlər arasında etimadın möhkəmləndirilməsi vasitəsilə ənənəvi diplomatik kanalları tamamladığını söyləyib.

Milli Məclisin sədri parlament diplomatiyasının etibarlı, inklüziv olmasının və beynəlxalq hüquqa, demokratik prinsiplərə, eləcə də qarşılıqlı anlaşmaya əsaslanmasının vacibliyini vurğulayıb. O deyib ki, parlament diplomatiyası fikir ayrılıqlarının olduğu hallarda belə konstruktiv əməkdaşlıq üçün platforma təqdim etməlidir. Azərbaycan Milli Məclisi bu yanaşmanı dəstəkləyir və çoxtərəfli parlament platformaları çərçivəsində əməkdaşlığa xüsusi önəm verir.

Bu kontekstdə Assambleyanın həm Azərbaycanın, həm də Ermənistanın parlamentlərinə müşahidəçi statusu verməsi qərarını müsbət qiymətləndirən spiker Sahibə Qafarova deyib ki, bu ölkələr, Prezident İlham Əliyevin qeyd etdiyi kimi, onilliklərlə davam edən münaqişədən sonra sülh şəraitində yaşamağı öyrənirlər. Bu addım sülh və normallaşma istiqamətində davam edən səylərə uyğun olaraq iki ölkə arasında dialoqun və etimad quruculuğunun inkişafına töhfə verə bilər. Parlamentlərimizin də iki xalq arasında etimadın qurulması istiqamətində çalışdığını söyləyən Sahibə Qafarova deyib ki, Aralıq Dənizi Parlament Assambleyası konstruktiv əməkdaşlıq üçün daha bir mühüm platformaya çevrilə bilər.

Milli Məclisin sədri Sahibə Qafarova Azərbaycanın beynəlxalq parlament fəaliyyətlərində fəal iştirak etdiyini xatırladaraq deyib ki, ölkəmiz parlamentlərarası əməkdaşlığı ortaq çağırışların həlli üçün mühüm vasitə hesab edir. Spiker xatırladıb ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış və hazırda Milli Məclisin sədrlik etdiyi Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi də ölkəmizin qlobal səviyyədə parlament əməkdaşlığının gücləndirilməsinə sadiqliyini əks etdirir. Bu baxımdan, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi ilə Aralıq Dənizi Parlament Assambleyası arasında Anlaşma Memorandumunun imzalanmasının əhəmiyyəti qeyd olunub. Bildirilib ki, bu mühüm addım parlament diplomatiyasının beynəlxalq əməkdaşlığın vacib sütunu kimi gücləndirilməsinə dair ortaq öhdəliyimizi əks etdirir və bu çərçivə daha institusional qarşılıqlı fəaliyyəti və parlamentlərarası əlaqələrin daha da genişlənməsini təşviq edəcək.

Çıxışının sonunda spiker Sahibə Qafarova bir daha diqqətə çatdırıb ki, səmərəli parlament diplomatiyası davamlı öhdəlik və əlaqələndirilmiş fəaliyyət tələb edir. Parlamentlərimiz arasında əməkdaşlığın gücləndirilməsi də sülhə, sabitliyə və davamlı inkişafa xidmət edəcək.



## Ramiz Tahirovun müavini 1 milyonluq mənimsəmədə ittiham edilir

***Hərbi Hava Qüvvələrinin sabiq komandan müavini mərhum polkovnik Mayis Orucəliyevin cinayət əməli ortaya çıxıb.***

"Unikal" "Qafqazinfo"ya istinadən xəbər verir ki, polkovnik xüsusilə külli miqdarda mənimsəmədə ittiham olunur. Cinayət işinin istintaqı Azərbaycan Respublikası Hərbi Prokurorluğunun İstintaq İdarəsində aparılıb. İş üzrə dövlətə dəymiş ziyan 1 milyon manata yaxındır.

Təqsirləndirilən şəxsin həyat yoldaşı hüquqi varis qismində tanınıb. M.Orucəliyev öldüyü üçün təqsiri sübuta yetirildiyi halda yekunda cinayət işinə bəraətverici əsaslar olmadan xitam veriləcək. Dəymiş ziyanın ödənilməsi isə mərhumun əmlakı hesabına təmin oluna bilər.

Cinayət Məcəlləsinin 179.4-cü (xüsusilə külli miqdarda mənimsəmə) və 341.2.3-cü (vəzifə səlahiyyətlərini aşma) ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri korrupsiya cinayətləri arasında ağır maddələrdən hesab edilirlər.

Qeyd edək ki, polkovnik Orucəliyev uzun müddət Hərbi Hava Qüvvələrinin sabiq komandanı general-leytenant Ramiz Tahirovun müavini işləyib. 2022-ci ildə 57 yaşında xəstəlik səbəbindən vəfat edib.

Xatırladaq ki, analoji hal müdafiə nazirinin sabiq müavini, Maddi-Texniki Təminat Baş İdarəsinin keçmiş rəisi, mərhum general-leytenant Fuad Məmmədovla bağlı da yaşanmışdı. O və iki şirkət əməkdaşı xüsusilə külli miqdarda mənimsəmədə ittiham olunublar. F.Məmmədov öldüyünə görə onu hüquqi varisi təmsil edib, məhkəmə ölümündən 5 il sonra ittiham edilən generalın cinayət işinə bəraətverici əsaslar olmadan xitam verib. Mərhumun üzərinə həbs qoyulmuş külli miqdarda qiymətləndirilən əmlakları dövlət nəfinə müsadirə olunub.

## Azərbaycanla Gürcüstanın hərbi mütəxəssislərinin görüşü keçirilib

***Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Gürcüstan Müdafiə Nazirliyi arasında 2026-cı il üçün ikitərəfli hərbi əməkdaşlıq planına əsasən, Bakı şəhərində hər iki ölkənin kibertəhlükəsizlik üzrə hərbi mütəxəssislərinin işçi görüşü keçirilib.***

Müdafiə Nazirliyindən "Unikal"a verilən məlumata görə, Azərbaycan Ordusunun Baş Qərargahında keçirilən görüşdə hər iki ölkənin hərbi qurumları arasında informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində əməkdaşlığın genişləndirilməsinə dair ətraflı fikir mübadiləsi aparılıb.

Görüşdə qarşılıqlı təcrübə mübadiləsi məqsədilə bu cür səfərlərin vacibliyi xüsusi vurğulanıb, eləcə də maraq doğuran bir sıra digər məsələlər ətrafında geniş müzakirələr aparılıb.

# "Kartdan-karta pul köçürmə tənzimlənəcək"

## Vüqar Bayramov: "Əgər vergidən yayınmaya gətirib çıxarmırsa, burada hər hansı tənzimləmələrə və qaydalara ehtiyac yoxdur"

***Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, deputat Vüqar Bayramov "Unikal"a müsahibə verib. O, Mərkəzi Bankın sədri Taleh Kazımovun keçirdiyi mətbuat konfransında toxunduğu bir sıra vacib məsələlər barədə fikirlərini bildirib.***

***-Vüqar bəy, yaxın vaxtlarda (3-4 ay ərzində) Azərbaycanda maaş almaq üçün könüllü bank seçimi mümkün olacaq. Növbəti mərhələdə bu pensiyaçılara da aid olacaq. Maaş və pensiyanın alınması üçün könüllü bank seçimi vətəndaşlara və banklara hansı üstünlüklər verəcək?***



-İlk növbədə əməkhaqqı müqaviləsi ilə çalışan vətəndaşlarımızın öz banklarını könüllü şəkildə seçməsi reallaşacaq. Hazırda bank seçimi işəgötürən tərəfindən həyata keçirilir. İşçi tərəfindən bank seçimi reallaşmır. İşəgötürənin hansı bankda hesabı varsa, həmin bank üzrə işçilərə əməkhaqqı kartları təqdim olunur. Artıq yeni sistem yaradılmaq üzrədir və yaxın aylarda istifadəyə veriləcək. Bu sistemin özəlliyi ondan ibarətdir ki, mobil aplikasiya üzərindən vətəndaş özü hansı bankdan əməkhaqqı kartını almaq istədiyini seçə biləcək. Bu imkan verəcək ki, vətəndaş ona yaxın olan və ya özünün əməkdaşlıq etmək istədiyi bankı seçərək onun kartı ilə əməkhaqqı ala bilsin. Bu, işçiyə seçim və vaxta qənaət imkanı deməkdir. Bu halda işçi özü seçiminə uyğun olaraq bankla bağlı qərar verəcək.

***-Ötən ay Milli Məclisin plenar iclasında "Maliyyə icarəsi haqqında" qanun layihəsi birinci oxunuşda qəbul olunub. Amma lombardlarla bağlı normativ-hüquqi baza razılaşdırma mərhələsindədir. "Lombardlar haqqında" qanuna hansı dəyişikliklər ediləcək və bu sahənin tənzimlənməsi üçün nə kimi addımlar atılmalıdır?***

"Lombardlar haqqında" qanun layihəsi hazırlanır və güman edilir ki, yaxın vaxtlarda Milli Məclisə təqdim olunacaq. Bununla bağlı Mərkəzi Bank tərəfindən də açıqlama yayıldı. Burada məqsəd heç də sərt inzibatçılığın gətirilməsi deyil. Məqsəd istehlakçıların hüquqlarının qorunmasıdır. Lombard fəaliyyətinin monitorinqi göstərir ki, bir sıra hallarda istehlakçıların hüquqları pozulur. Girov kimi cəlb edilən qızılın dəyişdirilməsi, qızılın qiymətləndirilməsi ilə bağlı heç də uyğun olmayan mexanizmlərin təqdim edilməsini və kifayət qədər yüksək faizləri qeyd etmək olar. Bu, istehlakçıların hüquqlarının pozulmasına gətirib çıxarır. Ona görə bu sektorun tənzimlənməsinə ehtiyac vardır. Amma söhbət ciddi tənzimləmələrdən getmir. Sərt tənzimləmələrin lombard sektoruna gətirilməsi arzuolunan deyil. Çünki bu sektorun özəllikləri var. Ümumiyyətlə, inkişaf etməkdə olan ölkələrdə bu sektor tənzimlənən zaman sərt qaydalardan istifadə olunmur. O baxımdan təbii ki, lombard fəaliyyəti ilə bağlı yeni qanun layihəsinin hazırlanması prosesi gedir. Bu daha çox istehlakçıların hüquqlarının qorunması ilə bağlı qaydaların qanunvericiliyə gətirilməsi və lombard fəaliyyətindən istifadə edən vətəndaşlarımızın hüquqlarının daha yaxşı qorunmasına imkan verəcək.

***-AMB sədri Taleh Kazımov bildirib ki, "card to card" dövriyyəsi inanılmaz dərəcədə böyükdür. Ümumiyyətlə, son dövrlər pərakəndə ticarət və iaşə obyektlərində nağdsız ödənişlərin POS-terminallar vasitəsilə deyil, "kartdan-karta" köçürmə yolu ilə aparılması halları geniş yayılıb. Belə hallara qarşı hansı addımlar atılmalıdır?***

-"Card to card"la bağlı əsas problemlərdən biri vergidən yayınmaların çoxalmasıdır. Bəzi hallarda xidmət və ictimai iaşə sektorunda çalışan sahibkarlar vəsaiti kassa vasitəsilə deyil, "card to card"la almağa üstünlük verirlər. Bu ona gətirib çıxarır ki, iqtisadi dövriyyəyə və eyni zamanda vergiyə cəlb olunmalı vəsait vergidən yayındırılır. Bu addım vergidən yayınma hallarının artmasına, eyni zamanda sahibkarlar arasında rəqabətin pozulmasına gətirib çıxarır. Ona görə ki, vergi ödəyən sahibkarın bəlli xərci var. Amma vergidən yayınan sahibkar həmin xərci ödəmədiyi üçün rəqabət pozulur. Rəqabətin qorunması və gücləndirilməsi baxımından "card to card" əməliyyatlarına nəzarətin gücləndirilməsinə ehtiyac var. Söhbət vətəndaşın digər karta ödənişindən getmir. Vətəndaş yaxınına, qohumuna, dost və tanışına kartı vasitəsilə vəsait göndərə bilər. Əgər vergidən yayınmaya gətirib çıxarmırsa, burada hər hansı tənzimləmələrə və qaydalara ehtiyac yoxdur.

***-Əməkhaqqının 5 misli qədər limit tətbiq etdikdən sonra kredit kartlarının sayı azalmağa başlayıb. Bundan əvvəl isə böyük limitlərlə kredit kartları verilirdi və bu addım müəyyən mənada problemli kreditləri artırırdı. Limitin tətbiq edilməsini necə qiymətləndirirsiz?***

-Limitlərin müəyyənləşdirilməsi kredit kartlarının sayından daha çox kredit kartları üzrə öhdəliklərə təsir göstərir. Məsələ ondan ibarət idi ki, bir sıra hallarda banklar tərəfindən vətəndaşın və ya kart sahibinin ödəmə qabiliyyətinə uyğun olmayan limitlər açılırdı. Belə limitlərin açılması ona gətirib çıxarırdı ki, vətəndaş kredit limitindən istifadə edirdi və sonra onu geri qaytarmaqda çətinliklə üzləşirdi. Həmin vəsaitin geri qaytarılmasında çətinliklər olurdu. Bu da vətəndaşın izafi borclanmasına gətirib çıxarırdı. Gözlənilirdi ki, bu, kredit limitlərinin sayının və dövriyyəsinin azalmasına gətirib çıxaracaq və bu da müşahidə olundu. Kredit dövriyyəsində də bu kontekstdən təsirlər müşahidə edilməlidir. Təbii ki, məqsəd kredit kartlarının azalması deyil. Həmin limitlər daxilində vətəndaş yenə də kredit kartı ala bilər. Bu sadəcə limitlərin tənzimlənməsinə gətirib çıxarır və tənzimlənmə növbəti dövrdə də davam etdiriləcək.

***-Azərbaycanda qanunsuz mərc oyunları ilə böyük vəsaitlər xaricə ötürülür. Bunun qarşısını necə almaq olar?***

-Bütün dünyada qanunsuz mərc oyunlarına qarşı mübarizə aparılır. Qlobal maliyyə sistemi kifayət qədər virtuallaşıb. Bəzi hallarda nəzarət imkanları məhduddur. Sözsüz ki, Mərkəzi Bank və digər dövlət qurumları tərəfindən bu istiqamətdə nəzarət imkanları genişlənir. Çünki burada söhbət vəsaitin xaricə axmasından gedir. Təbii ki, valyutanın xaricə axınının qarşısının alınması çox vacibdir. Bu istiqamətdə tənzimləmələr həyata keçirilir, qaydalar tətbiq olunur. Bunlar nəticə etibarı ilə prosesdə tənzimləmələri artırıb.

***Anar Kəlbiyev***

17_27 IYUl-QARA.qxd 5/7/2026 9:04 PM Page 8



# Cavanşir Feyziyevə Londonda daha bir şok

## Deputatın Britaniya paytaxtında aldığı və üzərinə həbs qoyulan 22 mülklə bağlı sensasiyalı təfərrüatlar ortaya çıxdı

***Deputat Cavanşir Feyziyevin Böyük Britaniyada əldə etdiyi daşınmaz əmlaklar və gəlir mənbələri ilə bağlı məlumatlar yayılıb. Bildirilir ki, məlumatlar xaricdə yaşayan jurnalist Cavanşir Həsənli tərəfindən paylaşılıb.***

Jurnalistin istinad etdiyi mənbə İngiltərə Ali Məhkəməsinin sənədləridir (istinad nömrəsi: [2024] EWHC 501 (Admin), iş № AC-2023-LON-001768).

Məhkəmə sənədlərinə əsasən, deputatın Londonda müxtəlif illərdə aldığı bildirilən daşınmaz əmlaklar aşağıdakılardır:

* 2008 və 2013-cü illərdə ümumi dəyəri təxminən 4 milyon



olan ailə evi (- funt sterlinq);

* 2013-cü ildə Cavendish House-da 2 mənzil (hər biri ?318,500);

* 2016-cı ildə Goldhawk House-da 4 mənzil (ümumilikdə təxminən 1.9 milyon);

* 2016-2017-ci illərdə Golding House-da 8 mənzil (ümumilikdə 4 milyondan çox);

* 2018-ci ildə Argent House-da 4 mənzil (təxminən 2.1 milyon).

**Ən yüksək dəyərli alqı-satqılar kimi isə qeyd olunur:**

* 2020-ci ildə Whistler Square ünvanında 18.4 milyon dəyərində mənzil

* 2019-cu ildə eyni ünvanda 8.1 milyon dəyərində digər mənzil

Qeyd edilir ki, sonuncu iki mənzil birbaşa Cavanşir Feyziyevin öz adına rəsmiləşdirilib.

Millət vəkili yayılan bu məlumatlara hələ ki, hər hansı münasibət bildirməyib.

"Unikal"ın araşdırması zamanı məlum olub ki, Böyük Britaniya məhkəməsi Feyziyevə məxsus Londonda 22 mülklə bağlı qərar əslində üç il əvvəl verilib. Belə ki, 2023-cü ilin iyununda məhkəmə haqqında danışılan əmlaklardan istifadə hüququnu dondurub. Həmin vaxt deputat və həyat yoldaşı "qanunsuz gəlir" hesabına əmlak əldə etməkdə şübhəli bilinirdilər. Britaniya mənbələrinin məlumatına görə, deputatın vəkilləri məhkəmənin qərarından apellyasiya şikayəti veriblər. 2024-cü il fevralın 22-də isə London Ali Məhkəməsi şikayətə baxmağa başlayıb. İddiaçının vəkilləri NCA-nın "hüquqi prosedurlara düzgün əməl etmədiyini" bildiriblər. Lakin görünən odur ki, bu şikayət heç nəyi dəyişdirməyib və əmlaklar üzərində həbs qərarı saxlanılıb.

Sözügedən mövzuda ilk məlumatlar yayılarkən o da bildirilirdi ki, ekspertlərin fikrincə, Feyziyev və onun ailə üzvlərinin adına rəsmiləşdirilən daşınmaz əmlakın ümumi dəyəri 63 milyon dollardan çoxdur.

Cavanşir Feyziyev və onun ailə üzvlərinin işi üzrə əvvəllər Böyük Britaniya Milli Cinayət Agentliyinin təşəbbüsü ilə başlanmış məhkəmə prosesinin də bir neçə il əvvəl yekunlaşdığını xatırladaq. Məhkəmənin qərarına əsasən, Feyziyev və ailə üzvlərinin London banklarındakı hesablarında olan on milyonlarla dollara həbs qoyulub. 2022-ci ildə isə məhkəmə bu məbləğdən 7 milyon 560 min dolların (5,6 milyon funt sterlinq) müsadirə edilməsinə qərar verib. Qalan vəsaitlərin hələ də həbsdə olub-olmadığına dair bilgi yoxdur.

C.Feyziyevlərin o zamankı vəkilinin mətbuata verdiyi açıqlamaya görə, ailə pulların müsadirə olunmasından məyus olub. Bundan əlavə, ailə üzvləri məhkəmənin "nə Cavanşir Feyziyevin, nə də təqsirləndirilən şəxslərin heç birinin korrupsiyada iştirak etmədiyi" hökmünü vurğulayırdılar. Deputat özü isə yerli KİV-ə müsahibəsində bildirmişdi ki, "həmin vəsaitlərin necə və harada qazanılması haqqında kifayət qədər təsdiqləyici sənədlərimiz var, əminəm ki, növbəti mərhələdə də məhkəmə araşdırması həmin sənədlərə lazımi qiyməti verəcək".

Londonda özü və ailə üzvləri ilə bağlı maliyyə təftişini isə Feyziyev məlum Beynəlxalq Bank işi ilə əlaqələndirmişdi. Sitat: "bir neçə il əvvəl Beynəlxalq Bankın fəaliyyətində ciddi qüsurlar aşkarlanmışdı və bununla bağlı Azərbaycanda da kifayət qədər uzun sürən məhkəmə araşdırmaları aparılmış, bankın İdarə Heyətinin sədri həbs olunmuşdu. Beynəlxalq Bankla bağlı baş vermiş bu xoşagəlməz hadisələr həmin bank vasitəsilə xaricə köçürülmüş bütün vəsaitlərin qanuniliyinə kölgə salır. O cümlədən, ailə üzvlərimin xaricdəki bank hesablarında olan vəsaitlərin də məhz həmin hissəsi Beynəlxalq Bank vasitəsilə köçürüldüyündən London Məhkəməsi hesab edir ki, araşdırmalara ehtiyac var".

Fəqət C.Feyziyevin bank hesablarındakı pul vəsaitləri ilə bağlı məhkəmə prosesi başa çatdıqdan az sonra NCA agentliyi deputat və yaxınlarını təqib etməkdə davam edib. Nəticədə Londondakı 22 mülk üzərinə həbs qoyulmasına qərar verilib.

O zamanlar KİV-də yayılan məlumatlardan belə anlaşılırdı ki, məhkəmənin qərarına əsasən, Feyziyev və onun həyat yoldaşının adına rəsmiləşdirilmiş daşınmaz əmlak satıla və ya heç kimə hədiyyə edilə bilməz. Milli Cinayət Agentliyinin nümayəndələri bildirmişdilər ki, sözügedən əmlakların qanunsuz əldə edilməsinə dair əllərində "inandırıcı sübutlar" var.

Məhkəməyə təqdim edilmiş sənəddə NCA " yalan və ya uydurma təsvirlərlə" müşayiət olunan və çirkli pulların yuyulmasında iştirak etdiyi aşkarlanan şirkətlərin "son dərəcə mürəkkəb maliyyə fəaliyyətindən" danışıldığı da deyilirdi.

***Toğrul Əliyev***

# Bir günə 100 minə yaxın uşaq 1-ci sinfə qəbul olub



***Dünəndən bu günə 100 minə yaxın uşaq 1-ci sinfə qəbul olub.***

"Unikal" xəbər verir ki, bu sözləri MÜTDA-nın direktoru Eşqi Bağırov jurnalistlərə açıqlamasında deyib. O bildirib ki, proses davam edir.

Qeyd edək ki, 1-ci sinifə qəbul prosesi mayın 6-dan başlayıb.

# "40 qəpik xidmət haqqı tutulması düzgün deyil" - İqtisadçı

***"Dövlət qurumlarına onlayn cərimə və digər ödənişlər edərkən rüsum tutulması doğru deyil".***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı-ekspert Natiq Cəfərli deyib.

"Məsələn, qaydanı pozursan, 10 manat cərimə gəlir, tez ödəyəndə 10% endirim var, yəni, 9 manat ödəmək lazımdır, amma, ödəniş edərkən 40 qəpik də xidmət haqqı tutulur. Bu düzgün və ədalətli yanaşma deyil", - ekspert bildirib.

# Gecikdirilmiş vəsaitlər işçilərə ödənildi



***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) yanında Dövlət Əmək Müfəttişliyi Xidməti yanvar-aprel ayları ərzində işəgötürənlər tərəfindən sosial xarakterli ödənişlər olan 292,3 manat vəsaitin işçilərə ödənilməsinin gecikdirildiyini müəyyən edib.***

Bu barədə "Unikal"a ƏƏSMN-dan məlumat verilib.

Bildirilib ki, həmin vəsait işəgötürənlər tərəfindən işçilərə ödənilib. Bu vəsaitlərin 91 faizi əməkhaqqı, 9 faizi isə müavinət və kompensasiya, zərərə görə ödəncdən ibarət olub.

Müraciətlərin araşdırılması zamanı Dövlət Əmək Müfəttişliyi Xidməti 50 işçinin əmək müqaviləsinə qanunvericiliyin tələbləri pozulmaqla xitam verildiyini də müəyyən edib.

Xidmətin qanunvericiliyə əsasən gördüyü tədbirlər nəticəsində həmin işçilər yenidən əvvəlki işlərinə bərpa olunublar.

# Bakı metrosunun iş rejimi dəyişir



***"Bakı Metropoliteni" QSC qeyri-iş günləri ilə əlaqədar olaraq iş rejimində dəyişiklik edəcək.***

"Unikal" xəbər verir ki, 9 May Faşizm Üzərində Qələbə Günü və mayın 11-də "28 May-Əhmədli" və əksinə istiqamətdə qatarlararası interval 2 dəqiqə 30 saniyə, mayın 10-da isə 3 dəqiqə təşkil edəcək.

Bənövşəyi xətdə, həmçinin "Cəfər Cabbarlı-Xətai" və "Həzi Aslanov-Əhmədli" mənzillərində mövcud hərəkət qrafiki olduğu kimi saxlanılacaq.

"Bakmil" istiqamətində və əksinə qatarların hərəkəti 9 və 11 mayda şənbə, 10 mayda isə bazar gününün qrafiki üzrə tənzimlənəcək.

İş rejimində dəyişikliklə yanaşı, stansiyalarda ümumi nəzarət gücləndiriləcək, növbətçilik cədvəli əsasında əlavə işçi qüvvəsi ayrılacaq.

Ehtiyac yaranarsa, ehtiyat qatarlar xəttə buraxılacaq.

17_27 IYUl-QARA.qxd 5/7/2026 9:04 PM Page 9





# "Bakı-Roma münasibətləri strateji tərəfdaşlıq əsasında inkişaf edir" - Deputat

***”Prezident İlham Əliyevin İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloninin mayın 4-də Azərbaycana səfəri çərçivəsində mətbuata verdiyi bəyanat iki ölkə arasında münasibətlərin dərin məzmununu və geniş əməkdaşlıq imkanlarını ifadə edir. Bu münasibətlər artıq strateji tərəfdaşlıq səviyyəsində formalaşmış və konkret nəticələrlə müşayiət olunan çoxşaxəli əməkdaşlıq modelinə çevrilmişdir”.***

Bunu ”Unikal”a açıqlamasında Milli Məclisin deputatı Bədəl Bədəlov deyib. Parlamentari bildirib ki, ikitərəfli münasibətlərin əsasını 2014 və 2020-ci illərdə imzalanmış strateji tərəfdaşlıq bəyannamələri təşkil edir.

”Bu sənədlər əməkdaşlığın prioritet istiqamətlərini müəyyənləşdirməklə yanaşı, əlaqələrin daha sistemli və davamlı əsaslar üzərində qurulmasına zəmin yaradıb. Yüksək səviyyəli siyasi dialoq və qarşılıqlı səfərlər tərəflər arasında etimad mühitinin gücləndiyini təsdiq edir. Baş nazirin regional səfər çərçivəsində əvvəl Ermənistanda, daha sonra Azərbaycanda olması isə diplomatik baxımdan xüsusi əhəmiyyət daşıyır və münasibətlərdə qarşılıqlı hörmətin ifadəsi kimi qiymətləndirilir.

Azərbaycan-İtaliya əlaqələrinin ən mühüm istiqamətlərindən biri enerji sahəsidir. İtaliya Azərbaycanın əsas ticarət tərəfdaşı olmaqla yanaşı, enerji ixracında da aparıcı mövqe tutur. 2025-ci ildə Azərbaycanın ixrac etdiyi 25 milyard kubmetr təbii qazın 9,5 milyard kubmetri İtaliya bazarına yönəldilib. Bu əməkdaşlıq Cənub Qaz Dəhlizi çərçivəsində daha da möhkəmlənir. Dəhlizin əsas seqmentlərindən biri olan Trans-Adriatik Boru Kəməri layihəsinin genişləndirilməsi istiqamətində aparılan müzakirələr gələcəkdə enerji tədarükünün daha da artırılmasına xidmət edir.

İtaliya Azərbaycanın bir nömrəli ticarət tərəfdaşıdır və illik ticarət dövriyyəsi 12 milyard dollara yaxın səviyyədədir. Bu göstərici iqtisadi münasibətlərin yüksək intensivliyini əks etdirir. Eyni zamanda, Azərbaycan Dövlət Neft Fondunun İtaliya iqtisadiyyatına təxminən 3 milyard dollar sərmayə yatırması qarşılıqlı iqtisadi maraqların uzlaşdığını göstərir. Bu investisiyaların yeni layihələrə yönəldilməsi perspektivləri isə əməkdaşlığın daha da genişlənməsi üçün əlavə imkanlar yaradır.

İkitərəfli münasibətlərdə yeni istiqamətlərdən biri də hərbi-texniki əməkdaşlıqdır. Birgə istehsalın təşkili, texnologiya mübadiləsi və sənaye sahəsində ortaq layihələrin həyata keçirilməsi bu sahədə əməkdaşlığın perspektivli olduğunu nümayiş etdirir. İtaliya texnologiyalarının və Azərbaycanın maliyyə imkanlarının birləşdirilməsi innovativ yanaşmaların tətbiqinə şərait yaradır.

Hazırda İtaliyanın 130-a yaxın şirkəti Azərbaycanda fəaliyyət göstərir. Bu şirkətlərin xüsusilə işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur bölgələrində həyata keçirdikləri 23 layihə iqtisadi əməkdaşlığın coğrafiyasını genişləndirir. İtaliya şirkətləri həmin layihələrdə fəal iştirak etməklə bərpa və yenidənqurma prosesinə töhfə verir və xarici tərəfdaşlar arasında ön sıralarda yer alır.

İkitərəfli münasibətlərin mühüm istiqamətlərindən biri də təhsil sahəsidir. İtaliya-Azərbaycan Universiteti bu əməkdaşlığın təntənəsinə çevrilib. Bu ali məktəb gələcəkdə yüksək ixtisaslı kadrların hazırlanmasına və iki xalq arasında humanitar əlaqələrin möhkəmlənməsinə xidmət edəcəkdir.

Azərbaycan-İtaliya münasibətləri bu gün strateji tərəfdaşlıq əsasında inkişaf edən, enerji, iqtisadiyyat, sənaye və təhsil sahələrini əhatə edən çoxşaxəli əməkdaşlıq modelidir. Qarşılıqlı maraqlara əsaslanan bu əlaqələr gələcəkdə daha da genişlənəcək, regional və beynəlxalq səviyyədə mühüm rol oynamağa davam edəcəkdir”.

# Elman Rüstəmovun bankı qaydaları pozdu

## Mərkəzi Bank niyə "Bank Respublika" ilə bağlı icrası məcburi sərəncam verib?

***Azərbaycan Mərkəzi Bankı (AMB) ”Bank Respublika” ASC-yə icrası məcburi sərəncam verib. ”Unikal” bu barədə AMB-yə istinadən məlumat yayıb.***

Belə ki, “Bank Respublika” ASC müştəri köçürmələrinin və inkasso sərəncamının icrası zamanı “Ödəniş əməliyyatlarının aparılmasına və ödəniş alətlərinə dair Qayda”nın tələblərini pozub.

Bununla əlaqədar, “Banklar haqqında” Azərbaycan Respublikasının Qanununun 47-ci maddəsinin tələbləri rəhbər tutularaq Mərkəzi Bank tərəfindən “Bank Respublika” ASC-yə qeyd olunan halların gələcəkdə təkrarlanmaması məqsədilə daxili nəzarət sistemlərinin gücləndirilməsi və məsul şəxslər barədə qanunvericiliyə müvafiq tədbirlərin görülməsi ilə bağlı icrası məcburi sərəncam verilib.

Xatırladaq ki, adıçəkilən bankın Elman Rüstəmova bağlılığı barədə ölkə mediası illərdir yazır. Xüsusilə 2010-cu illərin ortalarında baş verən iki devalvasiyadan sonra bir çox banklar ciddi zərər görsə, onlardan bəziləri sonradan ləğv olunsa da, “Bank Respublika”nın həmin prosesdən hətta güclənərək çıxması məhz Rüstəmovun adı ilə bağlanırdı. Bildirilirdi ki, həmin vaxt baş bankir olan Elman müəllim əlindəki imtiyazlar sayəsində öz bankını mümkün təhlükələrdən sığortalayıb.

Düzdür, “Bank Respublika”nın əsas səhmdarları iş adamı Natiq Quliyev və onun ailə üzvləridir, lakin yerli KİV Quliyevləri daha çox Elman müəllim kifayət qədər geniş spektrə malik şəxsi biznes şəbəkəsinin idarəçiləri kimi təqdim edirlər. Hərçənd, illər öncə N.Quliyev “Bank Respublika” ilə E.Rüstəmov arasında rəsmi bağlılığın olmadığını dilə gətirib. Bununla belə, özünün Elman müəllimlə yaxşı münasibətlərinin olduğunu gizlətməyib.

Onu da deyək ki, ötən ilin payızında sabiq baş bankirə məxsus şirkətlərin ləğv edilməyə başladığı barədə məlumat yayılmışdı. Onlardan ikisi - həm ”Əkinçi-Bo Fermer Təsərrüfatı” MMC, həm də ”Qarabağ Taxıl Aqro” MMC rəsmi olaraq ləğv olunduqlarını elan etmişdilər. Mediada açıqlanan və təkzib olunmayan məlumatlara görə, ləğv edilən hər iki şirkətin təsisçisi ”Səba” ASC-dir. Bu ASC isə məhz E.Rüstəmovun biznes imperiyasına aid olunur.

Ötən ilin sonunda isə adı yenə də Elman Rüstəmovla hallanan ”Bakı Sığorta” Açıq Səhmdar Cəmiyyəti ləğv olunduğunu elan etmişdi. Həmin vaxt bildirilirdi ki, kreditorlardan iki ay ərzində tələblərin bildirmələri istənilib.

Xatırladaq ki, ”Bakı Sığorta” 1994-cü ildə ”Tural Sığorta” adı ilə yaradılıb, 2007-ci ildə rebrendinq edib. Nizamnamə kapitalı 8 milyon 925 min 440 manat, qanuni təmsilçisi Oqtay Pirmurad oğlu Şeydabəyov olub.

Mərkəzi Bank “Bakı Sığorta”nın lisenziyasının geri alınmasına səbəb kimi şirkətin maliyyə dayanıqlılığının aşağı olmasını göstərib.

Onu da deyək ki, adıçəkilən ASC-nin səhmdarları ”Bank Respublika” ASC, ”Diamond Motors” MMC, ”Ekolizinq” MMC, ”Toyota Abşeron Center” MMC, ”Yeni Motor” MMC və 2 fiziki şəxs idi. ”Bank Respublika” və ”Toyota Abşeron Center”in Elman Rüstəmova məxsusluğu barədə deyilənləri nəzərə alsaq, “Bakı Sığorta”nın da adının sabiq baş bankirlə hallanmasına təəccüblənməmək lazımdır.

Yeri gəlmişkən, 1995-2022-ci illərdə Mərkəzi Bankın rəhbəri olmuş Elman müəllim bu vəzifə ilə vidalaşdıqdan sonra onun şəxsi biznesi ciddi çətinliklərlə qarşı-qarşıyadır. Düzdür, o, hazırda Baş nazirin müşaviridir, lakin Rüstəmovun indiki postu nüfuz və təsir imkanları baxımından öncəki vəzifəsi ilə müqayisəyə gəlmir, yəqin ki, elə ona görə də sabiq baş nazir xeyli müddədir yuxarıda vurğuladığımız çətinlikləri aradan qaldırmağa çətinlik çəkir.



Digər tərəfdən, bir vaxtlar özü də ölkənin baş bankına rəhbərlik etmiş Elman Rüstəmova aid edilən “Bank Respublika”nın indi “Ödəniş əməliyyatlarının aparılmasına və ödəniş alətlərinə dair Qayda”nı pozması, bu səbəbdən də onun barədə icrası məcburi sərəncam verilməsi kifayət qədər maraqlı məqamdır.

Yeri gəlmişkən, “Bank Respublika” ötən il oktyabrın 1-nə olan məlumata görə, Azərbaycandakı 22 bank içərisində vaxtı keçmiş kreditlərin həcmindəki artışa görə ən yüksək dinamika nümayiş etdirib. Onun problemli kreditləri nə az, nə çox, düz 98, 8 faiz artıb.

Bu il yanvarın 1-nə olan məlumatdan isə aydın olub ki, “Bank Respublika”nın problemli kreditlərinin həcmi 32 milyon manat təşkil edib. Həmin rəqəm isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 4,3 faiz çoxdur.

İddialara görə, vaxtilə problemli kreditlər sarıdan demək olar ki, narahatlığı olmayan “Bank Respublika”nın Rüstəmov AMB rəhbərliyindən gedincə belə bir vəziyyətlə üzləşməsi də kifayət qədər düşündürücü məqamdır...

17_27 IYUl-QARA.qxd 5/7/2026 9:04 PM Page 10



# Vidadi İsayevin gənc kadrı rüşvət və dələduzluq bataqlığında

## İcra başçısı baş memar təyin etdiyi şəxsin cinayətlərindən xəbərsiz imiş? - 30 yaşında müəmmalı yüksəlişin acı sonu...

***Bu günlərdə Bərdə Rayon İcra Hakimiyyəti başçısı aparatının Memarlıq və tikinti şöbəsinin sabiq müdiri - baş memar Toğrul Şadlinskiyə hökm oxunduğu barədə məlumat yayıldı.***

Həmin məlumatda deyilirdi ki, 1987-ci il təvəllüdlü Toğrul Şadlinskiyə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 178.2.2, 178.2.3 və 178.2.4-cü maddələri ilə cinayət işi açılıb.

Məlum olub ki, Toğrul Şadlinski Bərdə Rayon İcra Hakimiyyəti başçısı Vidadi İsayevin əmri ilə aparıcı məsləhətçi vəzifəsindən azad olunaraq, 2023-cü ilə qədər Memarlıq və tikinti şöbəsinin müdiri - baş memar vəzifəsində işlədiyi dövrdə bir sıra qanun pozuntularına yol verib. Belə ki, o, vəzifədə olduğu müddətdə İcra Hakimiyyətinin inzibati binasında yerləşən xidməti otağında



R.O. adlı şəxsi Bərdədə DOST Mərkəzinə işə düzəldəcəyini vəd edərək 10 000 manat pul alıb və dələduzluq edib.

Bundan başqa, Toğrul Şadlinski öz qulluq mövqeyindən təkrar istifadə edərək sahibkar Cavid Şükürova məxsus Əliyanlı kəndində yerləşən 0,15 hektar kənd təsərrüfatı təyinatlı torpaq sahəsinin təyinatını dəyişdirərək qeyri-yaşayış sahəsi kimi çıxarış alınmasına köməklik göstərəcəyini bildirib və bu yolla 12 500 manat pul ələ keçirib.

Məhkəmədə ifadə verən Toğrul Şadlinski əməlindən peşman olduğunu bildirib. O, hazırda Şamaxıda fəaliyyət göstərən şirkətlərdən birinin filialında sahə mühəndisi işlədiyini və aylıq 2500 manat əmək haqqı aldığını deyib. Təqsirləndirilən şəxs həmçinin zərərçəkmişlərə dəymiş ziyanı hər ay hissə-hissə ödədiyini qeyd edib və bir daha qanunsuz əməl törətməyəcəyinə söz verib. O, məhkəmədən ona qarşı rəhmli olunmasını xahiş edib.

Məhkəmənin hökmü ilə Toğrul Şadlinskiyə 1 il 6 ay müddətinə dövlət, yerli özünüidarəetmə orqanlarında və kommersiya təşkilatlarında maddi məsul və rəhbər vəzifə tutmaq hüququndan məhrum edilməklə, 2 il 11 ay 26 gün müddətinə azadlığın məhdudlaşdırılması cəzası təyin olunub. Cəza müddətindən onun 2 gün həbsdə saxlanıldığı vaxt çıxılıb.

Hökmə əsasən, təqsirləndirilən şəxsin üzərinə bir sıra məhdudiyyətlər qoyulub: hər gün saat 23:00-dan 06:00-dək yaşayış yerini tərk etməmək, elektron nəzarət vasitəsi daşımaq və onun işlək vəziyyətdə saxlanılmasını təmin etmək, Bərdə rayonunun inzibati ərazisini tərk etməmək, məhkəmənin icazəsi olmadan yaşayış yerini dəyişməmək, iş yerini dəyişdiyi halda nəzarət orqanını əvvəlcədən məlumatlandırmaq, kütləvi tədbirlər təşkil etməmək və belə tədbirlərdə iştirak etməmək.

Qeyd edək ki, iki il əvvəl Toğrul Şadlinskinin yaxın qohumu, Bərdə Məşğulluq Mərkəzinin sabiq direktoru Bilman Şadlinski barəsində də Cinayət Məcəlləsinin 179.2.1, 179.2.3, 179.2.4 və 308.1-ci maddələri ilə cinayət işi açılmış və hökm çıxarılmışdı.

Həmçinin onun qohumlarından Fəxrəddin Şadlinski Bərdə Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru, Fəqət Şadlinski isə YAP Bərdə rayon təşkilatının sədridir. Digər yaxınları da rayonda müxtəlif vəzifələrdə çalışıblar. Məsələn, Bilman Şadlinskinin uzun müddət rayonun Məşğulluq Mərkəzinin rəhbəri işlədiyi deyilir.

"2015-2020-ci illərdə həmin postu tutan Bilman Şadlinski sonradan Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında idarələrin birində Kadrlar sektorunda böyük məsləhətçi işləyib. Elə həmin vaxt da ona Cinayət Məcəlləsinin (bundan sonra CM) 179.2.1, 179.2.3, 179.2.4 və 308.1-ci maddələri ilə cinayət işi açılıb. Buna səbəb B.Şadlinskinin Bərdə Məşğulluq Mərkəzinin direktoru vəzifəsində işləyərkən yol verdiyi qanunsuzluqlar olub. Belə ki, o, bir qrup şəxs halında öz qulluq mövqeyindən istifadə etməklə, ona etibar edilmiş özgə əmlakına külli miqdarda ziyan vurmaqla israf etməkdə günahlandırılıb. Bilman Şadlinskinin təkcə 2016-cı ildə ümumilikdə 23 nəfər iş axtaran şəxs üçün dövlət tərəfindən ayrılan 112 min 193 manat vəsaiti müxtəlif yollarla mənimsəməsi məlum olub. O, tanışları ilə əlbir olaraq, öncə onları tenderin qalibi edib. Daha sonra onlar Bərdə mal bazarından heyvanlar, Sədərək Ticarət Mərkəzindən ucuz dərzilik ləvazimatları alaraq, 9 nəfərə aktivlər veriblər. Yerdə qalan 14 nəfəri isə aktivlərlə təmin etməyiblər. İstintaqda onun digər qanunsuz əməlləri də yer alıb. Qəribədir ki, sonradan o, yuxarıda göstərilən ilk üç maddə ilə bəraət alıb, ancaq sonuncu (308.1. Vəzifə səlahiyyətlərindən sui-istifadə) maddəsi ilə hökm qüvvədə saxlanılıb" - məlumatlarda deyilir.

İddialara görə, F.Şadlinskinin oğlu olan Toğrul məhz atasının və Bərdədə mühüm mövqelərə malik digər yaxınlarının sayəsində, özü də cəmi-cümlətanı 30 yaşında adı çəkilən rayonun İcra Hakimiyyətinin (RİH) başçısı Vidadi İsayev tərəfindən baş memar vəzifəsinə gətirilib. "2017-ci ildə RİH-in Memarlıq və Tikinti Şöbəsinin müdiri, baş memar Rəşid Süleymanov bu vəzifədən azad edildi. İcra başçısı Vidadi İsayevin sərəncamı ilə həmin vəzifəyə Toğrul Şadlinski təyin olundu. Toğrul həmin vəzifəyədək Memarlıq və Tikinti şöbəsində aparıcı-məsləhətçi vəzifəsində calşırdı" - deyə Bərdədəki qaynaqlar bildirirlər.

O da vurğulanır ki, T.Şadlinski baş memar postunu tutarkən bir yandan dövlətçiliyin sadiq xidmətçisi olaraq görünməyə çalışıb, elə də tanınmayan KİV-lərdə öz adından bu mövzuda yazılar, açıqlamalar dərc etdirib, digər tərəfdən isə yerli əhalidə narazılıq doğuran əməllərlə məşğul olub. Bu barədə V.İsayevin də məlumatlı olduğu, lakin nəyə görə uzun müddət sabiq baş memarın hərəkətlərinə göz yumduğu deyilir.

***Toğrul Əliyev***



# Nazirin işdən çıxardığı xanıma TƏBİB-də vəzifə verildi

***Səhiyyə Nazirliyinin İnsan resursları, elm və təhsil şöbəsi müdirinin müavini vəzifəsindən bir neçə gün əvvəl azad edilən Təranə Əhmədovaya yeni vəzifə verilib.***

"Unikal" Bakupost.az-a istinadən xəbər verir ki, o, işdən çıxarıldığı gün TƏBİB-də vəzifəyə təyin olunub. Məlumatda bildirilir ki, T.Əhmədovaya əvvəlki sahə üzrə eyni vəzifə həvalə edilib və o artıq işinin icrasına başlayıb.

Bununla bağlı hələlik rəsmi açıqlama verilməyib.

Qeyd edək ki, Təranə Əhmədova 2024-cü ilin dekabrında Baş Prokurorluğun keçirdiyi əməliyyat zamanı saxlanılan Səhiyyə Nazirliyinin İnsan resursları, elm və təhsil şöbəsinin sabiq müdiri Səidə Rüstəmovanı əvəz etmişdi.

Səidə Rüstəmova saxta sertifikasiya işi ilə bağlı ittiham olunur.

# Universitetlərə qəbul üzrə sınaq imtahanı keçiriləcək

***Mayın 10-da ali təhsil müəssisələrinə qəbul imtahanının ikinci mərhələsi üzrə sınaq imtahanı keçiriləcək.***

Bu barədə "Unikal"a Dövlət İmtahan Mərkəzindən məlumat verilib.

Bildirilib ki, sınaq imtahanında iştirakçılara ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbul imtahanının II mərhələsinin modelinə uyğun test tapşırıqları təqdim olunacaq.

İmtahanda iştirak etmək üçün yazılış internet vasitəsilə aparılıb və 5554 abituriyent qeydiyyatdan keçib. İmtahan mayın 10-da Bakı, Sumqayıt, Naxçıvan, Gəncə, Şəmkir, Şəki, Bərdə, Göyçay, Şirvan, Xaçmaz və Lənkəran şəhərlərində ümumilikdə 26 binada təşkil olunacaq.

Sınaq imtahanı bütün binalarda saat 10:00-da başlanacaq. İmtahanda iştirak edəcək abituriyentlərin nəzərinə çatdırırıq ki, imtahan binasına buraxılış saat 09:45?də başa çatacaq. İmtahanın başlanmasına 15 dəqiqə qalmış buraxılış rejimi başa çatır. Bundan sonra gələn iştirakçılar imtahan binasına buraxılmırlar. İmtahan iştirakçıları qeyd olunanları nəzərə almalı və buraxılış vərəqəsində göstərilən vaxtdan gec olmayaraq imtahan binasında olmalıdırlar.

İmtahanın müddəti 3 saatdır. Yazılı cavab vermək tələb olunan açıq tipli tapşırıqların cavabları "cavab vərəqi"ndə nəzərdə tutulan müvafiq yerlərdə, digər tapşırıqların cavabları isə "cavab kartı"nda qeyd olunur. İmtahanın sonunda cavab vərəqələri və cavab kartları abituriyentlərdən təhvil alınır, sual kitabçalarını isə aparmağa icazə verilir.

"Abituriyentlərin nəzərinə çatdırırıq ki, imtahan binalarına buraxılış yalnız onların şəxsiyyət vəsiqəsinin əsli və "İmtahana buraxılış vərəqəsi" əsasında həyata keçirilir.

Göstərilən sənədlərindən biri olmayan, sənədləri arasında uyğunsuzluq olan, imtahana şəxsiyyət vəsiqəsinin surəti ilə gələn abituriyentlər imtahana buraxılmırlar", - məlumatda qeyd olunub.




## "III Beynəlxalq Aqrar İnnovasiya Forumu" keçirilib

***Mayın 7-də Bakı Ekspo Mərkəzində keçirilən "Caspian Agro Week" sərgisi çərçivəsində Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı ilə "III Beynəlxalq Aqrar İnnovasiya Forumu" baş tutub.***

"Unikal" xəbər verir ki, forumun əsas məqsədi kənd təsərrüfatında innovasiyaların tətbiqinin genişləndirilməsi, rəqəmsal həllərin təşviqi, elmi tədqiqatların praktikaya inteqrasiyası, eləcə də aqrar ekosistemin bütün iştirakçıları arasında səmərəli əməkdaşlığın gücləndirilməsi olub.

Tədbir aqrar sahədə innovativ yanaşmaların tətbiqi, rəqəmsal transformasiya, süni zəka texnologiyalarının inkişafı və dövlət-özəl sektor əməkdaşlığının genişləndirilməsi istiqamətində mühüm müzakirə platforması kimi iştirakçıları bir araya gətirib.

Kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova və Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərov çıxış edərək aqrar sahədə innovasiyaların, rəqəmsallaşmanın və müasir texnologiyaların tətbiqinin kənd təsərrüfatının dayanıqlı inkişafında mühüm rol oynadığını vurğulayıblar.

Forum çərçivəsində keçirilən panel müzakirələrində aqrar sahədə rəqəmsallaşma, süni zəka texnologiyalarının tətbiqi, eləcə də regionlarda aqrar inkişafın artırılması məqsədilə dövlət, özəl sektor, peşə və ali təhsil müəssisələri arasında əməkdaşlıq imkanları ətrafında geniş fikir mübadiləsi aparılıb.

"Aqrar sahədə rəqəmsallaşma və süni zəka" mövzusunda keçirilən panel müzakirəsində aqrar sahədə rəqəmsal transformasiya, süni zəka texnologiyalarının tətbiqi, qida təhlükəsizliyi, ekoloji davamlılıq, su ehtiyatlarının idarə olunması və enerji səmərəliliyi istiqamətində innovativ həllər müzakirə olunub. Panel "Aqrar sahədə süni zəka" layihəsinin rəhbəri Surxay Novruzovun moderatorluğu ilə keçirilib. Müzakirələrdə kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova, ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov, energetika nazirinin müavini Samir Vəliyev, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin sədr müavini Zəkiyyə Mustafayeva və Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədr müavini İlham Bayramlı iştirak ediblər.

Forum çərçivəsində keçirilən ikinci panel müzakirə "Regionlarda aqrar inkişafın artırılması istiqamətində dövlət, özəl sektor, peşə və ali məktəblər arasında əməkdaşlıq imkanları" mövzusuna həsr olunub.

Panel müzakirəsi Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərovun moderatorluğu ilə baş tutub. Müzakirələrdə Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov, Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru Zəfər Qurbanov, Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru İlqar Bayramlı, kənd təsərrüfatı nazirinin müşaviri Nicat Əsədov, eləcə də "İnnovasiyalar Mərkəzi" MMC-nin direktoru Vüsal Rüstəmov spiker qismində iştirak ediblər.

Panel zamanı regionlarda aqrar inkişafın sürətləndirilməsində dövlət qurumları, özəl sektor, peşə təhsili müəssisələri və ali məktəblər arasında əməkdaşlığın gücləndirilməsi, bilik və

# Qiymətlərin kəlləçarxa çıxdığı özəl bağçaların gizlinləri

## Bir çoxu iri məmurların nəzarətində olan bu müəssisələrdə illik ödənişlər qan dondurur, ancaq... - İlginc detallar!

***Gəncədə yerləşən özəl uşaq bağçalarından birində çəkildiyi bildirilən görüntülər sosial şəbəkələrdə geniş müzakirələrə səbəb olub.***

Yayılan kadrlarda tərbiyəçi müəllimin azyaşlı uşaqlarla kobud davranması və sərt ifadələr işlətməsi valideynlərin narazılığına yol açıb.

Məsələ ilə bağlı bağçaya üz tutan valideynlər hadisənin onları ciddi şəkildə narahat etdiyini bildiriblər. Onların sözlərinə görə, görüntülərdə öz övladları da yer alır və bu cür davranışın təkrarlanmaması üçün müəllim heyətində dəyişiklik edilməsini istəyirlər. Həmin müəllim əvvəllər uşaqlarla normal münasibətdə imiş, buna görə də yayılan



görüntülər onlar üçün gözlənilməz olub.

Bağça rəhbərliyi hadisədən sonra araşdırma aparıldığını və görüntülərdə yer alan əməkdaşın işdən çıxarıldığını açıqlayıb.

Daxili İşlər Nazirliyindən verilən məlumata görə, hadisə ilə əlaqədar bağçanın əməkdaşı polis idarəsinə dəvət olunaraq onunla profilaktik söhbət aparılıb.

Qeyd edək ki, Azərbaycanda, o cümlədən paytaxt Bakıda fəaliyyət göstərən özəl bağçalarla bağlı mütəmadi olaraq şikayətlərə rast gəlinir. Onlardan bəziləri aradan müəyyən vaxt keçməsinə baxmayaraq hələ də yaddaşlardadır, çünki ciddi ictimai rezonans doğurmuşdu. Bu sırada Yasamaldakı "Əsmanur" adlı özəl bağçada uşaqların yatması üçün onlara "Ketotifen" adlı dərman verilməsinin aşkarlanmasını (bu dərman birinci nəsil antihistamin vasitəsidir, əks-təsirlərindən biri yuxululuqdur, eləcə də yüngül baş gicəllənməsi, psixi reaksiyaların yavaşlaması da müşahidə oluna bilər), yaxud Nizami rayonunda fəaliyyət göstərmiş "Moon Kids" adlı özəl bağçanın hazırda məhkəməsi gedən direktoru Havvaxanım Rüstəmovanın təxminən yarım milyon manatlıq (konkret desək, 428 min manat) mənimsəməyə qol qoymasını (Cinayət Məcəlləsinin 178.2.2, 178.2.3, 178.2.4 (qulluq mövqeyindən istifadə etməklə təkrarən və xeyli miqdarda dələduzluq) və 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələrilə təqsirləndirilir) xatırlatmaq mümkündür. İllər öncə "Kids Studio" adlı başqa bir özəl bağçada müxtəlif vaxtlarda körpələrin döyüldüyünə dair videokadrların ortaya çıxması da cəmiyyət tərəfindən haqlı olaraq böyük hiddətlə qarşılanmışdı.

Elə Gəncənin özündə də özəl uşaq bağçaları ilə bağlı qalmaqal ilk dəfə baş vermir. Hələ ötən ilin sonlarında Gencexeber.az-a müraciət edən bir çox valideyn son aylarda bağçalarda uşaqlar arasında zorakılıq və aqressiya hallarının artdığını, lakin əməkdaşların bu situasiyalara vaxtında müdaxilə etmədiyini bildirmişdi. Valideynlərin sözlərinə görə, müxtəlif səbəblərdən övladlarını dövlət bağçalarına yerləşdirə bilməyən ailələr məcburiyyət qarşısında qalaraq özəl müəssisələrə üz tuturlar. Lakin aylıq yüksək ödənişlərə baxmayaraq, davranış nəzarəti və təhlükəsiz mühitin yaradılması kimi əsas tələblər bir çox özəl bağçada təmin edilmir.

İki övladı olan Gəncə sakini bildirmişdi ki, dövlət bağçasında uşaqlar arasında hər hansı xoşagəlməz hal yaşanan zaman əməkdaşlar dərhal müdaxilə edir, problemi araşdırır və uşaqlarla ayrıca məşğul olur. Lakin özəl bağçaya gedən digər övladı dəfələrlə həmyaşıdlarının zorakılığına məruz qaldığı halda, bağça rəhbərliyi tərəfindən lazımi tədbirlər görülməyib.

Həmin vaxt deyilirdi ki, Eminbəyli küçəsi 28 ünvanında yerləşən "Kuki Kids" uşaq bağçasında yaşanan hadisə də narazılığı artırıb.

"Valideynin dediyinə görə, 4 yaşlı uşağı iki həmyaşıdı tərəfindən döyülüb. Təqdim edilən görüntülərdən aydın olur ki, hadisə zamanı otaqda nə tərbiyəçi, nə baxıcı, nə də digər nəzarətçi olub. Uşaqlar arasında yaranan konfliktə heç bir müdaxilə edilməyib. Şikayətçi valideyn bildirib ki, bu, ilk belə hal deyil və övladı artıq psixoloji travma yaşamağa başlayıb. Onun sözlərinə görə, bağça rəhbərliyinə dəfələrlə müraciət etsə də, problemin həlli üçün ciddi addımlar atılmayıb: "Uşağın valideyni ilə danışıb üzr istədilər, amma bununla məsələ bitmir. Övladım dəfələrlə yıxılıb, vurulub. Başı stola dəyə bilərdi. Hər dəfə də nəzarətçi öz yerində olmur"" - xəbərdə vurğulanırdı.

Valideynlər aidiyyəti qurumlardan özəl bağçalarda nəzarətin gücləndirilməsini və təhlükəsizliklə bağlı boşluqların aradan qaldırılmasını tələb edirdilər.

Bütün qalmaqallar fonunda isə sözügedən müəssisələrin aylıq ödənişlərinin çox yüksək olması diqqət çəkir. "Unikal"ın araşdırmasına görə Bakı, Sumqayıt, Gəncə kimi şəhərlərdə özəl bağçalarda qiymətlər ən yaxşı halda aylıq 300-400 manatdan başlayır. İllik ödənişi 8-10 min manat olan özəl bağçalar da var. Lakin bu müəssisələrdə qiymətlə xidmətin keyfiyyəti arasında mütənasiblik olduğunu söyləmək çətindir.

Qəzetimizə danışan bir ekspert vurğulayıb ki, özəl bağçaların mütləq əksəriyyəti müxtəlif məmurların şəxsi biznesinə daxildir. Xeyli vəzifəli şəxsin ailə üzvlərinin adına rəsmiləşdirilmiş özəl bağçaların varlığı sirr deyil, bu isə onlar üzərində tam nəzarəti təmin etməyə imkan vermir.

***Sənan Mirzə***

17_27 IYUI-QARA.qxd 5/7/2026 9:05 PM Page 12



**5.3.8. Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# İlmələrdə yaşayan tariximiz

## Pərvin Məmmədova: "Qarabağın xalçaçılıq ənənələrini özündə cəmləşdirən "Malıbəyli" xalçası ilmə-ilmə toxunan ortaq bir dəyərdir"

***Azərbaycanın əsrlərdir qorunub saxlanan xalçaçılıq ənənəsi milli irsimizin bir parçasıdır. Tarixin izlərini ilmələrdə yaşadan Azərbaycan xalçaçılıq ənənəsi mədəni irsimizin qorunması baxımından böyük əhəmiyyət kəsb edir. Ötən həftə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu ərazisində təşkil olunmuş***

Beynəlxalq Xalça Festivalı da bu baxımdan böyük məna daşıyırdı. Artıq ikinci ildir ki, təşkil olunan Xalça Festivalı tarixin izlərini yaşadan İçərişəhərdə böyük bayram əhval-ruhiyyəsi yaşatmışdı. Şəhərin müxtəlif yerlərindən axışan paytaxt sakinləri, eləcə də xarici qonaqlar zəngin xalçaçılıq irsinin seyrinə toplaşmışdılar.

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin mətbuat xidmətinin rəhbəri Səfayə Əhmədova "Unikal" qəzetinə" müsahibəsində bildirib ki, ötən il təşkil olunan Xalça Festivalında yalnız milli xalçalar sərgilənirdisə, budəfəki festivalda 14 dövlətin milli pavilyonu qurulub.

"1-3 may tarixlərində "Azərxalça" ASC və "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin birgə təşkilatçılığı, İqtisadiyyat Nazirliyi və İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin - AZPROMO-nun dəstəyi ilə Beynəlxalq Xalça Festivalı təşkil olunub. Bu Festival həm də xalça gününə təsadüf edirdi.

Tədbirin ilk günü - 1 may tarixində təşkil olunan Beynəlxalq Xalça Forumu bu sahədə çalışan yerli və xarici mütəxəssisləri bir araya gətirdi. Forumda Özbəkistan, Türkmənistan, Albaniya, Mərakeş, Meksika, Türkiyə, Gürcüstan, Qırğızıstan, Qazaxıstan, Nepal, Belçika və digər ölkələrin nümayəndələri iştirak etdilər. Sənətşünasların, xalçaçı ustaların, tələbələrin və incəsənət xadimlərinin



qatıldığı Forumda Azərbaycan xalçalarının tarixi, estetik özəllikləri və dünya mədəni irsindəki yeri haqqında geniş təqdimatlar yer alıb; həmçinin xalçaçılığın yalnız mədəni irs deyil, eyni zamanda yüksək iqtisadi potensiala malik yaradıcı sənaye sahəsi olduğu vurğulanıb.

2-3 may tarixlərində isə İçərişəhərin qədim küçə və meydanlarında festival bayram ab-havasında davam edib. Qədim Buxara və Multani karvansaraları, Qoşa Qala meydanı və digər məkanlar xalça sərgilərinə, ustad dərslərinə, interaktiv teatr tamaşalarına və konsert proqramlarına ev sahibliyi edib. 19 ölkənin nümayəndəsi təmsil olunduğu festivalda Azərbaycan da daxil olmaqla 14 dövlətin milli pavilyonu qurulub və ziyarətçilərə müxtəlif xalçaçılıq məktəbləri, texnikaları, eləcə də ənənələri nümayiş etdirilib. Festival müddətində İçərişəhər ərazisi "Azərxalça" ASC- nin 500 əsl əl işi xalçası ilə bəzədilib. İki gün ərzində minlərlə həm yerli, həm xarici qonaqlar bu xalçaların üzərində gəzərək, toxunaraq, fotolar çəkdirərək tarixin bir hissəsinə keçiblər.

Bu cür beynəlxalq tədbirlər Azərbaycanın turizm potensialını gücləndirməklə yanaşı, milli irsimizin dünya miqyasında tanıdılmasına mühüm töhfə verir.



Tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva, Prezidentin köməkçisi Anar Ələkbərov, Azərbaycan Respublikasının İqtisadiyyat naziri Mikayıl Cabbarov başda olmaqla bir sıra rəsmi şəxslər, ictimai xadimlər, diplomatlar və Milli Məclisin deputatları iştirak ediblər. Qonaqlar festival ərazisində nümayiş olunan xalça kolleksiyaları, milli tətbiqi-dekorativ sənət nümunələri və beynəlxalq pavilyonlarla yaxından tanış olublar.

Beynəlxalq Xalça Festivalında bu il əsas təşkilatçılarla yanaşı 20-ə yaxın qurum tərəfdaş kimi çıxış edib. Azərbaycan xalçaçılıq sənətinin qədim tarixindən müasir dövrə uzanan inkişaf yolunu nümayiş etdirən Beynəlxalq Xalça Festivalı ölkəmizin mədəni irsinin beynəlxalq səviyyədə təbliğində əhəmiyyətli rol oynamaqla yanaşı, İçərişəhərin tarixi mühitində bu cür genişmiqyaslı tədbirlərin uğurla təşkil oluna biləcəyini bir daha sübut etdi".

Xalça Festivalında hər kəsin böyük maraq göstərdiyi guşələrdən biri də Qarabağ Dirçəliş Fondunun (QDF) guşəsi idi. Bu güşədə yerləşdirilən xalçatoxuma dəzgahında peşəkar toxucular tərəfindən toxunan "Malıbəyli" xalçası festival iştirakçılarının böyük marağına səbəb olmuşdu. Hər kəs bu xalçaya bir ilmə atmaq üçün sıraya düzülmüşdü.

Qarabağ Dirçəliş Fondunun PR və Kommunikasiya üzrə koordinatoru Pərvin Məmmədova "Unikal" qəzetinə açıqlamasında bildirib ki,

Qarabağın azadlığı təkcə ərazi bütövlüyümüzün bərpası deyil, həm də illər boyu dağıntılara məruz qalmış milli mədəniyyətimizin və irsimizin dirçəlişidir. Bu tarixi prosesdə xüsusi rol oynayan Qarabağ Dirçəliş Fondunun (QDF) missiyası təkcə azad edilmiş ərazilərdə bərpa və quruculuq işlərinə maliyyə dəstəyi göstərmək deyil, həm də həqiqətləri dünyaya çatdırmaqdır. Bütün bu işlərin təməlində isə xalqımızın birliyi dayanır: Qarabağı birlikdə daha gözəl bərpa etmək bizim ən böyük həmrəylik ideyamızdır:

### "Mədəniyyət və həmrəyliyin qovşağı

Bu gün Qarabağın dirçəlişi yalnız bərpa olunan infrastruktur və tikililərlə deyil, həm də mənəvi dəyərlərin, tarixi yaddaşın canlanması ilə ölçülür. Çünki mədəni irs sadəcə keçmişin xatirəsi deyil, gələcəyə uzanan ən etibarlı körpüdür. Həmrəyliyimiz isə bu dirçəlişin ən böyük təminatıdır.

QDF fəaliyyətə başladığı ilk gündən etibarən işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq, eləcə də mədəni irsin və ekoloji tarazlığın bərpası istiqamətində ardıcıl layihələr həyata keçirməklə yanaşı, ərazilərə dəyən zərərlə bağlı genişmiqyaslı maarifləndirmə işləri aparır.

2-3 may tarixlərində Bakının tarixi mərkəzi olan İçərişəhərdə baş tutan III Beynəlxalq Xalça Festivalı məhz bu ideyanı - milli kimliyimizin və dirçəlişin vəhdətini çatdırmaq üçün gözəl bir fürsət oldu. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, "Azərxalça" ASC və İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) təşkilatçılığı ilə keçirilən festivalda rəsmi tərəfdaş olan Qarabağ Dirçəliş Fondu (QDF) xüsusi guşə ilə təmsil olundu.

Beynəlxalq Xalça Festivalı hər il minlərlə yerli və xarici qonağı bir araya gətirən çox dəyərli bir platformadır. Bizim əsas məqsədimiz təkcə xalqımızın xalçaçılıq ənənələrini nümayiş etdirmək deyil, həm də festival iştirakçılarına mədəniyyətimizin və təbiətimizin dirçəlişi haqqında mesajları ən səmimi şəkildə çatdırmaq idi.

Fondun fəaliyyətinin ana xəttini təşkil edən ianə mədəniyyətinin təşviqi və milli həmrəyliyin gücləndirilməsi məqsədilə guşə ərazisində müxtəlif interaktiv fəaliyyətlər həyata keçirildi".

### Qarabağ irsi gənclərin gözü ilə

"Guşənizdə gənc tələbə rəssamların iştirakı necə reallaşdı və bu prosesin təbliğat baxımından əhəmiyyəti nədən ibarətdir" sualımızı isə QDF nin sözçüsü belə cavablandırdı.

"Gənclərin maarifləndirilməsi, mədəni irsin gələcək nəsillərə ötürülməsi Fondun fəaliyyətinin əsas prioritet istiqamətlərindən birini təşkil edir. Bunu nəzərə alaraq guşəmizdə Azərbaycan Rəssamlıq Akademiyasının 10 istedadlı tələbəsi onlar üçün ayrılmış yaradıcılıq zonasında Qarabağ xalçalarının motivlərindən və rəng çalarlarından ilhamlanaraq möhtəşəm rəsm əsərləri ərsəyə gətirdilər.



Bu, sadəcə rəsm çəkmək deyildi, gənclərin irsimizə olan marağını oyadan, onları araşdırmağa və öyrənməyə sövq edən bir proses idi. Onlar Qarabağ xalçalarını araşdırıb, hər naxışın mənasını öyrənib, dərinliklərinə yiyələnib dərk edərək unikal əsərlər ərsəyə gətirdilər. Məhz belə layihələr maarifləndirmə və təbliğat işinin bir parçasıdır".

### "Malıbəyli" xalçası: həmrəyliyə çağırış

P.Məmmədova QDF-nin guşəsində yerləşdirilən xalçatoxuma dəzgahında peşəkar toxucular tərəfindən toxunan "Malıbəyli" xalçasının festival iştirakçılarının böyük marağına səbəb olmasından da danışdı.

Bildirdi ki, Qarabağ xalçaçılıq məktəbinin Şuşa qrupuna aid edilən və öz adını Şuşa yaxınlığındakı Malıbəyli kəndindən götürən bu xalça naxışlarının həndəsi quruluşu ilə bölgənin qədim inanclarını simvolizə edir.

"Bizim üçün ən qürurverici məqam isə ziyarətçilərin böyük həvəslə bu yaradıcılıq prosesinə qoşulması oldu. Belə ki, ziyarətçilər həm toxuma prosesini izlədilər, həm də öz əlləri ilə ilmələr vuraraq xalçanın ərsəyə gəlməsində iştirak etdilər.

Hər bir qonağın vurduğu ilmə, sanki Qarabağın dirçəlişi naminə nümayiş etdirilən milli həmrəyliyimizin simvoluna çevrildi. Bu da təbliğatın ən təsirli formasıdır, çünki insanlar bu prosesin birbaşa iştirakçısına çevrilə bildi" deyə müsahibimiz vurğuladı.

Bu guşədə daha bir maraqlı stend "Qarabağın inciləri" oyunu idi. Qurum rəsmisi bildirdi ki, mədəni irsimizin təbliği və maarifləndirmə istiqamətində hazırlanan "Qarabağın inciləri" interaktiv pazl oyununa da maraq olduqca böyük idi:" Artıq bir neçə oxşar platformada nümayiş etdirdiyimiz bu oyun sadəcə əyləncə deyil, dərin məna daşıyan simvolik bərpa prosesidir.

Ziyarətçilər, xüsusən də gənc nəslin nümayəndələri və uşaqlar oyun vasitəsilə Qarabağın tarixi və mədəni abidələrinin təsvirlərini rəmzi olaraq bir araya gətirib "bərpa etdilər". Bu yanaşmanın əsas məqsədi işğaldan azad edilmiş ərazilərdə dağıntılara məruz qalmış tarixi abidələrimizin və mədəniyyət nümunələrimizin cəmiyyətin diqqət mərkəzində saxlanılmasıdır. İştirakçılar hər bir parçanı yerinə qoyarkən yalnız tarixi abidələrimizi deyil, həm də mənəvi yaddaşımızı bərpa etdiklərini hiss edirdilər. Guşəmizin ziyarətçilərinə təqdim olunan əsas layihələrimizdən biri britaniyalı yazıçı Qrem Vilsonun müəllifi olduğu "Qarabağın Dirçəlişi: Azərbaycan İntibahının Hekayəsi" adlı kitab idi.

Bu nəşr Azərbaycan - Ermənistan münaqişəsi həqiqətləri ilə yaxından tanış olan tanınmış müəllifin dərin analitik yanaşmasını və bənzərsiz hekayəçilik bacarığını özündə birləşdirir. Təxminən 500 səhifəni əhatə edən bu salnamə təkcə mətn deyil, fotoşəkillər və interaktiv rəqəmsal materiallarla zənginləşdirilib.

Kitabın ən mühüm və fərqləndirici xüsusiyyətlərindən biri onun məzmununun hibrid formada təqdim edilməsi və qlobal nəşriyyat sahəsi üçün postmünaqişə dövrünün tarixi təhlili baxımından yenilik olmasıdır.

Festivalın sonunda qədim adətə uyğun olaraq iki gün ərzində toxunan və Qarabağın xalçaçılıq ənənələrini özündə cəmləşdirən "Malıbəyli" xalçasının sap kəsilməsi mərasimi keçirildi və üzərinə şirniyyat səpildi.

Bu xalça mədəniyyətimizin yaşadılması və hər birimizin həmrəyliyi ilə ilmə-ilmə toxunan ortaq bir dəyərdir. Qarabağın dirçəlişi ortaq amalımız, birliyimizin və gələcəyə olan sarsılmaz inamımızın ən ali ifadəsidir".

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

17_27 IYUl-QARA.qxd 5/7/2026 9:05 PM Page 13






## Samuxda 3535,2 hektar sahədə yazlıq bitkilərin səpini aparılıb

***Rayonun iqtisadiyyatının əsasını kənd təsərrüfatı məhsullarının istehsalı təşkil edir. Fermerlərə maliyyə və texniki dəstəyin göstərilməsi, sahibkarlığın inkişafı kənd təsərrüfatının inkişafına müsbət təsir göstərmişdir.***

Əkinçilik sahəsində taxıl, günəbaxan, bostan və yem bitkilərinin əkini daha çox yer tutur.

Bununla yanaşı təsərrüfatlarda kartof, tərəvəz, qarğıdalı, və sair kənd təsərrüfatı məhsulları da becərirlər.

2026-cı ilin məhsulu üçün təsərrüfatlar 3535,2 hektar sahədə yazlıq bitkilərin səpini aparmışdır. Yazlıq səpinin 2230,0 hektarı əhali təsərrüfatlarında, 1305,2 hektarı isə kənd təsərrüfarı müəssələrində aparılmışdır.

Aparılmış yazlıq bitkilərin 108,5 hektarı dənli bitkilər, 379,3 hektarı tərəvəz, 161,4 hektarı kartof, 1326,8 hektarı günəbaxan, 490,9 hektarı şəkər çuğunduru, 416,5 hektarı qarğıdalı, 592,9 hektarı çoxillik otlar, 45,2 hektar bostan, 9,1 hektarı paxlalı bitkilər, 4,6 hektarı isə birillik otlar olmuşdur.

Hal-hazırda yazlıq bitkilərin səpini davam edir.

***Samux Rayon Statistika İdarəsi***

## 2026-cı ilin 4 ayında Qusarın təsərrüfatlarında yazlıq əkinlərin vəziyyəti haqqında

***2026-cı ilin 01 may vəziyyətinə rayonda 1386,3 hektar ərazidə yazlıq səpinləri aparılmışdır.***

Bu göstərici keçən ilin müvafiq dövrünün göstəricisindən 1503,7 hektar azdır. Əsasən kartof və tərəvəz əkinləri keçən ilə nisbətən xeyli azalmışdır. Belə ki 2025-ci ilin müvafiq dövründə 1754 hektar kartof və 897 hektar tərəvəz əkilmişdir. Hazırda bu göstərici kartof üzrə 730,5 ha və tərəvəz üzrə 187,3 hektardır. Buna səbəb havaların uzun müddət yağışlı və soyuq keçməsi olmuşdur.

Hazırda yazlıq bitkilərin əkini davam edir.

***Qusar Rayonu Statistika İdarəsi***

## Ucarda sənayenin statistikası

Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2026-cı ilin yanvar-mart aylarında 4980,1 min manatlıq məhsul istehsal edilmiş, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə sabit qiymətlərlə sənaye istehsalı indeksi 84,9 faiz təşkil etmişdir.

| Göstəricilərin adı | yanvar-mart ayları | | |
|---|---|---|---|
| | 2026-cı il | 2025-ci il | 2025-ci ilə nisbətən, faizlə |
| **Sənaye məhsulunun (işlərin, xidmətlərin) ümumi həcmi** | **4980,1** | **4893,8** | **84,9** |
| o cümlədən: emal sənayesi | 3959,1 | 3749,8 | 47,7 |
| elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 880,1 | 904,2 | 105,9 |
| su təchizatı, tullantıların təmizlənməsi və emalı | 140,9 | 239,8 | 45,9 |

***Ucar Statistika İdarəsi***

# "Məhkəmə istədiyi cəzanı verə bilməz" - Hakim

***Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Aygün Qurbanova cəmiyyətin məhkəmə qərarlarına münasibəti və cəza siyasətində balans məsələləri barədə fikirlərini bölüşüb.***



"Unikal" xəbər verir ki, hakimin sözlərinə görə, bəzi hallarda cəmiyyət verilən cəzanı ya həddindən artıq yüngül, ya da çox ağır hesab edir. Bu yanaşmanın emosional reaksiyalardan qaynaqlandığını qeyd edən A. Qurbanova bildirib ki, məhkəmələr qərar qəbul edərkən hisslərə deyil, hüququn tələblərinə əsaslanır.

"Cəmiyyət hadisələrə daha çox ağrı, qəzəb, empatiya və qorxu hissləri ilə yanaşır. Məhkəmənin əsas vəzifəsi isə cəmiyyətin gözləntiləri ilə hüququn tələbləri arasında düzgün balansı qorumaqdır", - deyə hakim vurğulayıb.

A.Qurbanovanın sözlərinə görə, bu balansın əsas dayaqlarından biri qanunilik prinsipidir. Məhkəmə istənilən cəzanı tətbiq edə bilməz və yalnız qanunvericiliyin müəyyən etdiyi çərçivədə qərar qəbul edir. Həmin çərçivə isə cəmiyyətin maraqları nəzərə alınmaqla müəyyənləşdirilir.

Hakim bildirib ki, cəza təyin edilərkən əsas prinsiplərdən biri də ədalət və mütənasiblikdir. Onun sözlərinə görə, məhkəmə yalnız nəticəyə deyil, cinayətin törədilmə şəraitinə, təqsirin formasına, şəxsin əvvəlki həyat tərzinə və hadisədən sonrakı davranışına da hüquqi qiymət verir. Məhz bu amillər cəzanın həqiqi ölçüsünü müəyyən edir.

Hakim həmçinin vurğulayıb ki, Azərbaycan Respublikası Ali Məhkəməsinin hüquqi mövqeyinə əsasən, cəza təyin edilərkən formal yanaşmaya yol verilməməli, hər bir iş fərdi qaydada araşdırılmalıdır.

A.Qurbanovanın fikrincə, bəzi hallarda məhkəmə şəxsin ilk dəfə cinayət törətməsini, peşmançılıq hissini və vurulmuş ziyanın ödənilməsini nəzərə alaraq daha yüngül cəza tətbiq edə bilər. Digər hallarda isə cinayətin planlaşdırılması, residiv halları və əməlin yüksək ictimai təhlükəliliyi daha sərt hüquqi nəticələrə səbəb olur.

Hakim qeyd edib ki, məhkəmə qərarlarının əsaslandırılması ictimai etimad baxımından xüsusi əhəmiyyət daşıyır: "Əgər hökm aydın, məntiqli və hüquqi baxımdan əsaslandırılmışdırsa, cəmiyyət onu daha asan qəbul edir. İnsanlar yalnız nəticəni deyil, həmin nəticənin arxasında duran hüquqi səbəbləri də görməlidir."

Sonda A. Qurbanova bildirib ki, hüquqi dövlətdə ədalət emosiyalarla deyil, qanun və sübutlarla müəyyən olunur: "Məhkəmə cəzanı cəmiyyətin emosiyalarına görə deyil, qanunun və ədalətin tələblərinə uyğun təyin edir. Əsl balans da məhz burada qurulur."

# Vətəndaşlara yalan vəd verərək xaricə işləmək adı ilə dələduzluq etdi - Məhkəmə işi

***Vətəndaşlara yalan vəd verərək xaricə işləmək adı ilə dələduzluq etməkdə təqsirləndirilən İlknur Abbasovun cinayət işi üzrə məhkəməsində zərərçəkmişlər dindirilib.***



"Unikal"ın verdiyi məlumata görə, Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Fərid Namazovun sədrliyi ilə keçirilən prosesdə zərərçəkmiş Vahid Əzimov bildirib ki, təqsirləndirilən şəxslə İnstaqram vasitəsilə tanış olublar:

"Dedi səni skandinaviya ölkələrinə göndərə bilərəm. Mənim də dostum Latviyada olduğu üçün elə o ölkəni seçdim. Ona bir hissəsi nağd digəri isə kartına atmaqla ümumilikdə 2500 manat verdim. Mənə vəd verdi ki, gedəcəyin ölkədə maaşın 1200 avro olacaq. Şikayətçiyəm pulumu tələb edirəm".

Zərərçəkmiş Rizvan Rüstəmov bildirib ki, təqsirləndirilən şəxslə taksidə tanış olub:

"Taksi fəaliyyəti ilə məşğulam. İnternet üzərindən Polşada iş elanını görmüşdüm Lakin sənədləşmə işində gecikmə oldu deyə gedə bilmədim. Mənim maşınımda olanda xarici ölkəyə işləməyə getmək istədiyimi dedim. Dedi ki, səni Slovakiyaya göndərə bilərəm. Uşağım yaşca balaca olduğundan həyat yoldaşımla birgə gedəcəkdim. Ümumilikdə 3700 manat pul vermişəm 1 manat da geri qaytarmayıb".

Məhkəmənin növbəti iclası iyunun 4-nə təyin edilib.

İlknur Abbasova qarşı Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq, külli miqdarda ziyan vurmaqla) maddəsi ilə ittiham irəli sürülüb.

***Orxan Rasifoğlu***

# "Azərbaycanın özü qədər əbədi olan şəxsiyyəti - Heydər Əliyev" adlı kitab sərgisi keçirilib

***10 May - Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın və dövlətimizin müstəqilliyi, inkişafı naminə böyük xidmətlər göstərmiş ümummilli lider Heydər Əliyevin doğum günüdür.***

Milli Kitabxanada bu tarixi gün münasibətilə "Ümummilli lider Heydər Əliyev" adlı virtual və "Azərbaycanın özü qədər əbədi olan şəxsiyyəti - Heydər Əliyev" adlı ənənəvi kitab sərgisi istifadəçilərə təqdim olunub.

Virtual sərgidə Ulu Öndər haqqında Azərbaycanın görkəmli şəxsiyyətlərinin fikirləri, Ümummilli Liderin həyat və fəaliyyətini əks etdirən dövrü mətbuat səhifələrində dərc olunan məqalələr, fotolar, Azərbaycan və digər dillərdə nəşr olunmuş kitablar nümayiş olunur. Virtual sərgidə təqdim olunan materiallar tam mətnləri ilə verilib.

Virtual sərgi ilə tanış olmaq istəyənlər https://anl.az/el/vsb/Ummummilli_lider_Heyder_Eliyevin_dogum_gunu/index.htm linkindən istifadə edə bilər.

Ənənəvi kitab sərgisində Ulu Öndərin həyat yolundan, ictimai, siyasi fəaliyyətindən bəhs edən kitablar, fotoalbomlar və s. müxtəlif materiallar Azərbaycan və xarici dillərdə nümayiş olunur.



# Böyük Vətən müharibəsi veteranı Yusif Qafarovun 100 illiyi qeyd olunur

***1941-1945-ci illər Böyük Vətən müharibəsinin iştirakçısı, bu gün Beyləqan rayonunda yaşayan, əslən Qərbi Azərbaycanın Vedi rayonunun Qarabağlar kəndindən olan Yusif Kərim oğlu Qafarovun 100 illik yubileyi böyük qürur və ehtiram hissi ilə qeyd olunur.***

1926-cı ildə qədim Azərbaycan yurdu olan Vedi rayonunun Qarabağlar kəndində anadan olan Yusif Qafarov ömrünün gənclik illərində müharibənin ağır sınaqları ilə üz-üzə qalmışdır. Yeniyetmə





yaşlarında Vətənin müdafiəsinə qalxan Yusif Qafarov 1941-1945-ci illərdə faşizmə qarşı






aparılan Böyük Vətən müharibəsində şərəfli döyüş yolu keçmiş, göstərdiyi igidlik və fədakarlıqla Qələbənin qazanılmasına öz töhfəsini vermişdir.

Müharibənin ağrı-acısını, itkilərini və çətinliklərini yaşayan həmin nəslin nümayəndələri bu gün xalqımızın ən böyük mənəvi sərvəti hesab olunur. Yusif Qafarovun da keçdiyi şərəfli həyat yolu, Vətənə sədaqəti və mübariz ruhu ilə hər zaman dərin hörmət qazanan ağsaqqallardandır.

Azərbaycan dövləti Böyük Vətən müharibəsi veteranlarına daim yüksək diqqət və qayğı göstərir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Böyük Vətən müharibəsində Qələbənin 81 illiyi münasibətilə imzalanan sərəncam da bunun bariz nümunəsidir. Dövlət başçısının veteranlara göstərdiyi diqqət və ehtiram qəhrəman nəslə verilən yüksək dəyərin ifadəsidir.

Yusif Qafarovun şərəfli ömür yolu beynəlxalq səviyyədə də yüksək qiymətləndirilir. Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko tərəfindən ona ünvanlanan təbrik məktubu da bunun təsdiqidir. Məktubda Böyük qələbəni qazanan qəhrəman nəslin insanlığı faşizm təhlükəsindən xilas etdiyi xüsusi vurğulanır, veteranların qəhrəmanlığının heç vaxt unudulmayacağı qeyd olunur.

Bu gün 100 illik ömür yoluna nəzər salarkən Yusif Qafarovun həyatının bütöv bir dövrün tarixi salnaməsi olduğu aydın görünür. Onun keçdiyi yol Vətən sevgisinin, mərdliyin, dözümün və xalqına bağlılığın canlı nümunəsidir. Belə insanlar xalqımızın qüruru, tariximizin canlı şahidləri və gələcək nəsillər üçün örnəkdir.

Yusif Qafarovu 100 illik yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edir, ona möhkəm cansağlığı, ailə səadəti, firavan ömür arzulayırıq.

Qələbə günün mübarək!

***R.Quliyev***

# Ağdaş rayonunda heyvandarlıq məhsullarının istehsalı

2026-cı ilin yanvar-mart aylarında kənd təsərrüfatı müəssisələri, fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatlarında faktiki qiymətlərlə 29816,0 min manatlıq məhsul istehsal olunmuşdur ki, onun da 29793,9 min manatı heyvandarlıq məhsullarının payına düşmüşdür.

2026-cı il aprel ayının 1-i vəziyyətinə rayonun təsərrüfatlarında 64207 baş iri buynuzlu mal-qara, o cümlədən 29151 baş inək və camış, 70754 baş qoyun və keçi mövcud olmuşdur.

2026-cı ilin yanvar-mart ayları ərzində 2551,3 ton diri çəkidə ət, 10237,4 ton süd, 6616 min ədəd yumurta istehsal olunmuşdur. 2025-ci ilin eyni dövrünə nisbətən ət istehsalı 0,1 faiz artmış, süd istehsalı 1,8 faiz azalmışdır.

***Ağdaş Rayon Statistika İdarəsi***

# Əkilən torpaqların 11 faizində müasir suvarma sistemləri tətbiq edilir

***Hazırda ölkə üzrə əkilən torpaqların təxminən 11 faizində müasir suvarma sistemləri tətbiq olunur.***

”Unikal” xəbər verir ki, bunu III Beynəlxalq Aqrar İnnovasiya Forumunda Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin (ADSEA) sədrinin müavini İlham Bayramov deyib.

O qeyd edib ki, digər ərazilərdə də müasir və ağıllı suvarma sistemlərinin tətbiqinin genişləndirilməsi və bu göstəricinin artırılması həm Kənd Təsərrüfatı Nazirliyinin, həm də ADSEA-nın qarşısında duran əsas hədəflərdən biridir.

“Ölkədə su ehtiyyatlarının səmərəli istifadə edilməsi çox strateji məsələdir, eyni zamanda, dayanıqlı su təminatı kənd təsərrüfatı sahəsinin vacib tərkib hissəsidir. Ölkə üzrə 14 hidropost quraşdılıb və bu da bizə hidroçayların səviyyələrinin onlayn rejimdə izləməyə imkan yaradır. Artıq 1 milyon 955 mindən çox abonentin su istehlakı üzrə məlumatları toplanıb. Hazırda “Elektron su təsərrüfatı” informasiya sistemi (ESTİS) formalaşdırılır. Gələcəkdə ESTİS-in və Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminə (EKTİS) inteqrasiyası nəzərdə tutulur. Artıq qarşılıqlı məlumat mübadiləsi həyata keçirilir”, - deyə ADSEA-nın sədr müavini bildirib.

**Goranboyda əmtəə bazarı**

2026-cı ilin yanvar-mart aylarında pərakəndə ticarət şəbəkəsində istehlakçılara 78356,6 min manatlıq, o cümlədən 39465,7 min manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 38890,9 min manatlıq qeyri-ərzaq malları satılmışdır.

2025-ci ilin yanvar-mart ayları ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə 0,1 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 2,1 faiz artmış, qeyri-ərzaq məhsulları üzrə 1,0 faiz azalmışdır.

**Cədvəl 1**

**Pərakəndə ticarət dövriyyəsi, min manat**

| Göstəricinin adı | 2026-cı ilin yanvar-mart ayları | 2025-ci ilin yanvar-mart ayları | 2026-cı ilin yanvar-mart ayları 2025-ci ilin yanvar mart aylarına nisbətən, sabit qiymətlərlə, faizlə |
|---|---|---|---|
| Pərakəndə ticarət dövriyyəsi | 78356,6 | 74106,6 | 100,1 |
| *o cümlədən:* ərzaq məhsulları, içkilər və tütün məmulatları | 39465,7 | 36195,5 | 102,1 |
| qeyri-ərzaq malları | 38890,9 | 37911,1 | 99,0 |

2026-cı ilin yanvar-mart aylarında topdansatış əmtəə dövriyyəsinin həcmi 4645,0 min manat və ya əvvəlki ilə nisbətən 3,6 faiz az olmuşdur. Pərakəndə ticarət dövriyyəsinin 25737,4 min manatı və yaxud 32,8 faizi hüquqi, 52619,2 min manatı və yaxud 67,2 faizi fiziki şəxslərin payına düşür.

2026-cı ilin yanvar-mart aylarında pərakəndə və topdansatış ticarət şəbəkələrində əmtəə qalığı 35212,1 min manat təşkil etmiş, bunun da 11607,1 min manatı və ya 33,0 faizi hüquqi şəxslərin, 23605,0 min manatı və ya 67,0 faizi hüquqi şəxs yaratmadan sahibkarlıqla məşğul olan fiziki şəxslərin payına düşür.

***Goranboy Rayon Statistika İdarəsi***

# 2026-cı ilin birinci rübündə Qusarda sənayenin inkişafı haqqında statistika

***Qusar rayonunda 2026-cı ilin ilk 3 ayında sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 10164,8 min manatlıq sənaye məhsulu istehsal edilmiş və keçən ilin müvafiq dövrü ilə müqayisədə sənaye istehsalı 9,8 faiz artmışdır.***

Bu dövr ərzində rayonda 36,83 ton çınqıl, qırmadaş, xırda çay daşı və çaxmaq daşı, 10,18 min dekalitr meyvə şirələri, 323,92 ton meyvə-tərəvəz konservləri, 7,10 ton qaymaq, xama, 24,51 ton kərə yağı, 39,63 ton pendir və kəsmik, 245,68 ton buğda unu, 879,71 ton çörək, 43,05 ton unlu qənnadı məmulatlar, 0,30 min dekalitr üzüm şərabı, 4,57 min ton beton, 501,30 ton emal edilmiş mərmər istehsal olmuşdur. 2026-cı ilin martın 1-i vəziyyətinə sənaye müəssisələrində muzdla çalışan işçilərin sayı 613 nəfər, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 458 nəfər, qeyri-dövlət sektorunda isə 155 nəfər təşkil etmişdir. 2026-cı ilin yanvar-fevral aylarında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 614,0 manat olmuşdur.

***Qusar Rayon Statistika İdarəsinin rəis müavini Rafik Mahmudov***

17_27 IYUI-QARA.qxd 5/7/2026 9:05 PM Page 15



# Zaxarova ermənilәri Ukraynanın taleyi ilə hədələdi



***Volodimir Zelenskinin İrəvana səfəri Ermənistan xalqına Avropa İttifaqının onlar üçün hansı aqibəti hazırladığını göstərdi.***

"Unikal" xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova brifinqdə bildirib.

Diplomat qeyd edib ki, Ermənistan Avropanın militarizasiyası planlarına daxildir: "Mən onları ayaq üstə alqışlayıram. Xeyr, bu, səhv deyil. Bu, əsl hədiyyədir. Ermənistan xalqına Avropa İttifaqının sözdə gənc demokratiyalarla etdiyinin təcəssümünə çevrilmiş Brüssel planını göstərmək üçündür.

*Ağarza Elçinoğlu*

# "Alman siyasətçiləri Hitlerin varisləridir" - Medvedev

***"Hazırkı alman siyasətçiləri və Bandera Ukraynasının müxtəlif zibilləri qan qardaşları və Hitlerin Milli Sosializminin varisləridir".***

"Unikal" xəbər verir ki, bunu Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedev deyib.

"Buna görə də bugünkü alman siyasətçilərinin və generallarının Bandera Ukraynasını simvolizə edən müxtəlif iyrənc şeylərə heyranedici baxışlarla baxdıqlarını anlamaq çox asandır. Onlar sadəcə qan qardaşlarıdır və eyni qüvvənin - Hitler dövrünün Milli Sosializminin varisləridir", - deyə o qeyd edib.

*Gülayə Mecid*

# ABŞ Tehranı Yaxın Şərqdə ən böyük təhlükə adlandırdı

***"Vaşinqton Tehranı Yaxın Şərqdə ən böyük təhlükə hesab edir".***

"Unikal" xəbər verir ki, bu, Ağ Evin yenilənmiş terrorizmə qarşı mübarizə strategiyasının yayımladığı sənəddə yer alıb.

Məlumata görə, ABŞ prezidenti Donald Trampın "qətiyyətli hərəkətləri" "Tehran rejimi artıq ABŞ üçün təhlükə yaratmayana qədər davam edəcək".

Strategiyada qeyd olunur ki, ümumi terror təhlükəsi dəyişib və ölkə üç əsas terror növü ilə üzləşir: "narko-terrorçular və transmilli qruplar, ənənəvi islamçı terrorçular və solçu ekstremistlər".

Bundan əlavə, strategiyaya əsasən, Avropa ölkələri ABŞ-nin "terrorizmə qarşı mübarizədə aparıcı və uzunmüddətli tərəfdaşları" olaraq qalır.

*Gülayə Mecid*

# Paşinyan Moskvadakı parada getməyəcək

***Ermənistan Baş naziri Nikol Paşinyan Moskvada parada getməyəcək.***

"Unikal" xəbər verir ki, bu barədə jurnalistlərə bildirib.

Paşinyan seçkiqabağı kampaniyaya görə, mayın 9-da Moskvada keçiriləcək paradda iştirak etməyəcəyini deyib. Bildirib ki, bununla bağlı Rusiya Prezidenti Vladimir Putini hələ aprelin 1-də məlumatlandırıb.

# İran ABŞ-nin təklifinə bu gün cavab verə bilər

***İran İslam Respublikasının cümə axşamı ABŞ-nin münaqişənin sülh yolu ilə həlli təklifinə cavab verməsi gözlənilir.***

"Unikal" xəbər verir ki, bu barədə CNN telekanalı məlumat yayıb. Daha əvvəl İslam Respublikası Xarici İşlər Nazirliyinin sözçüsü İsmail Baqayi bildirib ki, İranın Amerika təklifinə cavabı vasitəçi kimi çıxış edən Pakistan tərəfinə göndəriləcək.

*Gülayə Mecid*

# "Köçəryan təsadüfi yoldan keçəndir" - Paşinyan

***"Dünya iki yerə bölünsə belə, həmin şəxs namizəd ola bilməz".***




"Unikal" xəbər verir ki, bunu Ermənistanın Baş naziri Nikol Paşinyan brifinq zamanı deyib.

O, "Güclü Ermənistan" partiyasının lideri Samvel Karapetyanın namizədliyi ilə bağlı çıxışında açıqlayıb: "Samvel Karapetyan nə baş nazir, nə də deputatlığa namizəddir. Konstitusiya həmin şəxsin baş nazir və ya deputatlığa namizəd olmasını qadağan edir. Həmin şəxs saxtadır, o, hibrid saxta namizəddir.

Ermənistanın heç bir bölgəsinin adının heç bir şəxslə əlaqələndirilməsinə icazə verməyəcəyəm, çünki bu insanların həmin bölgə ilə heç bir əlaqəsi yoxdur. Həmin bölgə onlar üçün oğurluq, cinayətkar fəaliyyət və xarici əlaqələr qurmaq üçün ərazi olub.

Robert Köçəryana gəldikdə isə, o, nə deputatlığa, nə də baş nazirliyə namizəd deyil. Namizəd ola bilməz, təsadüfi yoldan keçəndir. Mərkəzi Seçki Komissiyasında deputatlığa namizəd kimi qeydiyyatdan keçmiş digər şəxslər baş nazirliyə namizəd ola bilərlər, çünki deputatlığa namizədlik tələbləri baş nazirliyə namizəd üçün məcburidir".

*Ağarza Elçinoğlu*

# "Yol bağlanıb, ABŞ geri çəkilə bilmir" - SEPAH generalı

***"Amerikalılar işğalı qazanmaq və sonra bölgədən geri çəkilmək istəyirdilər. Lakin bu yol bağlanıb və onlar geri çəkilə bilmirlər".***

"Unikal" xəbər verir ki, bunu İranın Məqsədyönlülük Müəyyənləşdirmə Şurasının üzvü və müharibə dövründə İnqilab Keşikçilərinin komandanı olmuş general-mayor Möhsün Rzayi deyib.

O, Vaşinqtonun dünyada təcrid olunduğunu və hətta köhnə müttəfiqlərinin belə ona kömək etmədiyini qeyd edib: "Bu, döyüş meydanıdır və amerikalılarla münasibətdə son nəticəyə çatmalı və bu müharibədən faydalanmalıyıq.

ABŞ keçmiş Sovet İttifaqının yaratdığı boşluğu doldura biləcəyinə inanaraq regiona daxil olub, lakin keçmiş prezident Corc Buşdan sonra hazırkı ABŞ prezidenti Donald Tramp tərəfindən təkrarlanan bu ssenari uğursuzluqdur".



*Ağarza Elçinoğlu*

# ABŞ məhkəməsi Epşteynin intihar məktubunu paylaşdı

***Amerika məhkəməsi maliyyəçi Ceffri Epşteynin yazdığı iddia edilən intihar məktubunu dərc edib.***

"Unikal" xəbər verir ki, bu barədə "The New York Times" qəzeti yazıb.

Məktub Epşteynin kamera yoldaşı, dörd nəfəri öldürməkdə ittiham olunan keçmiş polis məmuru Nikolas Tartalyone tərəfindən aşkarlanıb. Tartalyone, Epşteynin intihar cəhdindən sonra qeydi bir kitabda tapdığını və vəkillərinə ötürdüyünü bildirib.



Məktub aylarla davam edən, nəticəsiz istintaqla bağlı şikayətlə başlayır. Daha sonra "vidalaşmaq üçün vaxt seçmək" ehtimalından bəhs olunur. Mətn "Əyləncəli deyil - buna dəyməz" ifadəsi ilə yekunlaşır.

Məqalədə qeyd olunur ki, qəzet onun məxfiliyini açmaq üçün ərizə təqdim edənə qədər memorandum uzun müddət dərc olunmayıb. Yalnız bundan sonra Nyu-Yorkun Uayt Pleyns şəhərindəki Federal Rayon Məhkəməsi memorandumun dərc olunmasını əmr edib.

"The New York Times" qəzeti qeydin həqiqiliyinə dair hələlik heç bir təsdiqin olmadığını vurğulayır.

*Gülayə Mecid*

# İrəvana səfəri 2 gün sonra üzə çıxdı

***Beynəlxalq Cinayət Məhkəməsinin (BCM) prezidenti Tomoko Akane ilk dəfə 5 mayda Ermənistana səfər edib.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistan mətbuatı yazıb.

Qeyd olunub ki, onun səfəri və respublikanın ədliyyə naziri Srbuhi Qalyan və baş prokuror Anna Vardapetyanla görüşü barədə məlumat 2 gün sonra məlum olub.

Baş Prokurorluğun mətbuat xidmətindən verilən məlumata görə, görüşdə Akane və Vardapetyan, xüsusilə də prokurorların beynəlxalq cinayətləri araşdırmaq potensialının artırılması kontekstində ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsinin və institusional tərəfdaşlığın gücləndirilməsinin vacibliyini vurğulayıblar. Onlar cinayət prosesində sübutların toplanması və zərərçəkmişlərin və şahidlərin müdafiəsi məsələlərini müzakirə ediblər.

Ədliyyə Nazirliyi Akanenin üçüncü beynəlxalq "İrəvan Dialoqu" konfransında iştirak etmək üçün gəldiyini açıqlayıb.

Ermənistanın ədliyyə naziri ilə görüşdə Beynəlxalq Cinayət Məhkəməsinin baş direktoru İrəvanın Roma Statutunun praktik tətbiqini tez və effektiv şəkildə təmin etmək öhdəliyini yüksək qiymətləndirib.



Tərəflər Roma Statutuna əsasən öhdəliklərin yerinə yetirilməsi ilə bağlı məsələləri müzakirə ediblər.

*Ağarza Elçinoğlu*

17_27 IYUl-QARA.qxd 5/7/2026 9:06 PM Page 16



# XTQ-nin şəhid zabitinin şərəfinə idman yarışı keçirilib

***44 günlük haqq savaşımızda yağıya qarşı döyüşlərdə tarix yazan Xüsusi Təyinatlı Qüvvələrin zabiti, XTQ Kimya Xidmət rəisi, Şuşa Fatehi, şəhid baş leytenant Əliqismət Mükafat oğlu Yaqublunun 30 yaşı tamam oldu.***

Bu münasibətlə ölümsüzlüyə qovuşan qəhrəmanın xatirəsinə həsr olunmuş "Lerik FİCHT Club"un rəhbəri Rizvan Abayevin təşkilatçılığı ilə "qaydasız döyüş" idman növü üzrə yarış keçirildi.

Maraqla qarşılanan, qürur hissi doğurdan İdman yarışına Əliqismət Yaqublunun valideynləri, şəhid ailələri, Lerik Rayon İcra Hakimiyyəti başçısının müavini Habil Məlikov, İcra Aparatının kollektivi, YAP Lerik rayon təşkilatının sədri Malik Mirzəyev, idarə, müəssisə rəhbərləri, rayon ictimaiyyəti və məktəblilər tamaşa etdilər.

Yarışın açılışında Lerik Rayon İcra Hakimiyyəti başçısının müavini Habil Məlikov İkinci Qarabağ müharibəsindəki şanlı qələbəmizdən, polad sinəsini ana Vətənə sipər edən şəhidlərin hünərindən , şəhid ailələrinə göstərilən dövlət qayğısından danışdı, hər yerdə, hər zaman şəhidlərə xalqımızın ehtiram göstərdiyini və belə tədbirlərin şəhid ailələ-



rinə böyük mənəvi dəstək olduğunu dilə gətirdi.

Jurnalist Hüsaməddin Abbasov, Lerik Rayon Gənclər və İdman İdarəsinin rəisi Natiq İsaqov və digər çıxış edən natiqlər şəhidin şərəfli həyat və döyüş yolundan iftixarla söz açdılar, belə tədbirlərin tez-tez təşkilinin əhəmiyyətini, eləcə rayonda idmanın inkişafına təsirini xüsusi olaraq qeyd etdilər . Məktəbli Elmin Zülfiyev isə şair Qəhrəman Əliyevin şəhid baş leytenanta həsr etdiyi "Cənab leytenant" şerini oxudu.

Şəhidin atası Mükafat Yaqubov öz növbəsində şəhidlərə olan ehtirama görə xalqımıza, şəhid ailələrinə göstərilən yüksək qayğıdan ötrü Prezidentimizə, dövlətimizə, Lerik Rayon İcra Hakimiyyətinə, "Lerik FİCHT Club" un rəhbəri, İdman ustası Rizvan Abayevə, yarışda iştirak edən gənc idmançılara təşəkkürünü bildirdi və yarışın başlanması üçün start komandasını verdi.

Tədbirin aparıcı diktoru Ruslan Məmmədovun yarış boyu iştirakçılar haqqında məlumat və şərhləri oldu. 10 idmançının qatıldığı, maraqlı və gərgin mübarizə şəraitində keçən yarışda 5 nəfər qalib gəldi. I yerə çıxan qaliblər şəhidin fotoşəkili həkk olunmuş qara kəmərlə təltif edildilər. Əliqismət Yaqublunun fotosu həkk olunmuş digər simvolik qırmızı kəmər isə onun atasına təqdim olundu.

Qeyd edək ki, dağlar diyarı Lerikdə dünyaya göz açan Əliqismət Yaqublu Daşaltının yağı tapdağından azad olunması uğrunda döyüşlərdə şəhadətə qovuşub. Prezident İlham Əliyevin sərəncamlarına əsasən ölümündən sonra "Azərbaycan Bayrağı" ordeninə, "Vətən uğrunda", "Şücaətə görə", Şuşanın, Kəlbəcərin, Xocavəndin azadlığı uğrunda medallarına layiq görülüb.

*Zəfər Orucoğlu,*
*Azərbaycan Jurnalistlər*
*Birliyinin üzvü*

# "CBC Sport"da cihaz yanıbmış - Hamı oyunu gözləyirdi...

***Ötən gün Çempionlar Liqasının yarımfinal mərhələsinin cavab görüşləri çərçivəsində keçirilən "Bavariya" - PSJ (0:1) matçı Azərbaycanda heç bir kanal vasitəsilə canlı yayımlanmadı.***

"Qafqazinfo" xəbər verir ki, əvvəlcədən "CBC Sport" qarşılaşmanı efirə verəcəyini açıqlasa da, bu baş tutmadı.

Oyunun canlı yayımlanmaması sosial şəbəkələrdə suallara və etirazlara yol açdı. İzləyicilərin əksəriyyəti durumdan narazılığını bildirdi. Maraqlısı budur ki, Çempionlar Liqasının ölkəmizdəki digər yayımçısı "İctimai TV"də oyunu ekranlara gətirmədi.

Məsələ ilə bağlı "CBC Sport" kanalına müraciət etdik. Kanalın baş redaktoru Şəmsəddin Abbasov bildirdi ki, matçdan az əvvəl qəbuledici cihazda yaranan problem oyunun yayımlanmasına mane olub: "Oyun başlamazdan 5-10 dəqiqə öncə qəbuledici yandı. Bütün testlər, digər texniki məsələlər qaydasında idi. Çalışırdıq ki, qəbuledicini düzəldək, amma bacarmadıq. Dedik ki, 2 saat ərzində nə zaman düzəlsə, elə oradan yayıma başlayaq. Amma alınmadı. Bununla bağlı bəyanat yayacağıq".

Oyun zamanı izləyicilərin bir qismi "İctimai TV"ni də matçı yaylımlamadığına görə günahlandırıb. Kanal isə "Bavariya" - PSJ matçının yayım hüququnun onlarda olmaması barədə açıqlama yayıb: "Məlumat üçün bildiririk ki, UEFA Çempionlar Liqasının yarımfinal oyunlarının əvvəlcədən bölgüsünə əsasən, mərhələnin "Arsenal" və "Atletiko Madrid" komandaları arasında keçirilən hər iki oyunun "İcti-




mai TV"nin efirində yayımlanması razılaşdırılıb. Hər iki oyun canlı yayımda tamaşaçılara təqdim olunub. "Bavariya" və PSJ komandaları arasında keçirilən digər yarımfinal oyunlarının yayım hüququ isə İTV-yə məxsus deyil. Hazırda davam edən oyunun yayımı ilə bağlı yaranmış problemə görə kanal məsuliyyət daşımır".

# FIFA "Neftçi"yə transfer qadağası qoydu

***FIFA-nın "Neftçi"yə transfer qadağası qoyub.***

"Unikal" xəbər verir ki, bununla bağlı xəbəri Ukrayna mediası FİFA-ya istinadən yayıb.

Cəzanın səbəbi açıqlanmayıb. Lakin adətən belə qərarlar ya klubun hazırkı və ya sabiq futbolçuları/məşqçiləri qarşısında borcları və ya maliyyə tələblərini pozmasına görə qəbul olunur.

"Neftçi" ilə bağlı qərar qarşıdakı 3 transfer dövrünü əhatə edir: 2026-cı ilin yay, 2027-ci ilin qış və yay transfer pəncərələri. Bu o deməkdir ki, qadağa müddəti dəyişilməsə, "Neftçi" yeni oyunçu transferini yalnız 2028-ci ilin qışından etibarən həyata keçirə biləcək.

Hələlik "Neftçi" klubu xəbərə dair açıqlama verməyib.

Bəs, qərar "Neftçi"yə necə təsir edəcək?

Bu qərar komandanın transfer siyasətinə ciddi təsir göstərə bilər. "Neftçi" yeni futbolçularla heyətini gücləndirə bilməyəcək ki, bu da çempionatda yüksək yerlər uğrunda mübarizəni və avrokuboklara vəsiqə şansını çətinləşdirəcək. Bununla belə, klub hazırkı futbolçularına və öz yetirmələrinə güvənməli olacaq.

Hazırda ukraynalı Yuri Vernidubun komandası Azərbaycan çempionatının turnir cədvəlində 4-cü pillədə qərarlaşıb. 30 oyundan sonra "Neftçi"nin aktivində 50 xal var və komanda avrokubok zonasına düşmək uğrunda mübarizəni davam etdirir.

Ukrayna mətbuatı yazır ki, Yuri Vernidub üçün bu vəziyyət onun "Zorya" və "Krivbass" klublarında çalışdığı dövrdə yaşanan bənzər problemlərinin təkrarı olacaq.

**FİFA-nın saytında "Neftçi"nin cəzalandırıldığını təsdiqləyən bölmə**




# İkisindən biri həftənin oyunçusu seçiləcək

***Çempionlar Liqasında yarımfinal mərhələsinin cavab matçlarına yekun vurulub.***

"Unikal" xəbər verir ki, oyunlardan sonra həftənin ən yaxşı futbolçusu adına namizədlər bəlli olub.

Mükafat uğrunda Deklan Rays ("Arsenal") və Vilyan Paço (PSJ) mübarizə aparır.

Qalib UEFA-nın saytında keçirilən sorğudan sonra bəlli olacaq.

# Niklas Süle karyerasını başa vurdu



***Dortmund "Borussiya"sının futbolçusu Niklas Süle 30 yaşında karyerasını başa vurub.***

QOL.az xəbər verir ki, müdafiəçi bu haqada klubun saytına açıqlamasında danışıb.

Almaniyalı futbolçu 18 apreldə "Hoffenhaym"a 2:1 hesabı ilə uduzduqları matç zamanı dizindən zədə almasından sonra belə qərar qəbul etdiyini deyib.

"Karyeramı başa vurduğumu elan etmək istəyirəm. "Hoffenhaym"la oyundan sonra həkimimiz paltardəyişmə otağında məni müayinə etdi, fizioterapevtə baxdı və başını yellədi. Duşa girdim və təxminən 10 dəqiqə ağladım. Düşündüm ki, vəziyyət çox pisdir. Ertəsi gün MRT müayinəsinə getdim və xoş xəbər aldım. Mənə 1000 faiz aydın oldu ki, artıq özümü riskə təmalıyam. Budur, hər şey bitdi. Yaşamaq, tətilə getmək, uşaqlarımla vaxt keçirmək şansını gözləyərkən 3-cü dəfə açıq diz zədəsindən daha pis bir şey təsəvvür edə bilməzdim".

Qeyd edək ki, Süle karyerası ərzində "Hoffenhaym", "Bavariya" və "Borussiya"da oynayıb, Çempionlar Liqası da daxil olmaqla 14 kubok qazanıb.

# "İmişli"nin əməkdaşları "Trabzonspor"un qonağı oldu

***"İmişli" klubunun nümayəndə heyəti Türkiyənin Trabzon şəhərinə səfər çərçivəsində "Trabzonspor" futbol klubunda 5 günlük təcrübə proqramında olublar.***

Proqramda klubun oyunların təşkili üzrə meneceri İlkin Əhmədov və komandanın meneceri Mədət Eminbəyli iştirak ediblər.

"Trabzonspor"un meneceri Əmrah Tokun dəvəti ilə baş tutan səfər zamanı nümayəndələr əsas komandanın bazası, qadın futbol akademiyası və alt yaş qrupları üzrə təlim-məşq mərkəzlərinin fəaliyyəti ilə tanış olublar.

Səfər çərçivəsində klubun baş məşqçisi Fateh Təkkə və rəhbərliklə keçirilən görüşlərdə oyunların təşkili, əməkdaşlıq imkanları və təcrübə mübadiləsi müzakirə edilib.

Bunugla yanaşı, "Trabzonspor" klubunun uşaq futbol akademiyası ziyarət edilib, akademiyanın rəhbəri İlkər Ərdəmlə qarşılıqlı əməkdaşlıq perspektivləri geniş şəkildə müzakirə olunub.